“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN

Qəzet 1932-ci ildən çıxır № 7-8 (6783-6784) 26 iyun 2017-ci il Cəbrayıl RİH-nin orqanı




# 26 İyun - Azərbaycanın Silahlı Qüvvələr günüdür

## İlham Əliyev Qurtuluş salnaməsinin növbəti möhtəşəm uğuruna imza atdı

# Cocuq Mərcanlı kənd yolunun açılışı

## *Böyük Qayıdışın ilk yolu*

**Böyük Qayıdışın başlanğıcı olan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası artıq başa çatıb.**

İyunun 14-də Cocuq Mərcanlı kəndinə səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan kənddə görülən işlərlə tanış olub.

Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılan, lakin ordumuzun şücaəti sayəsində azad edilən, dövlətimizin başçısının xüsusi diqqəti sayəsində qısa müddətdə yenidən qurulan bu kənd indi öz möhtəşəmliyi ilə diqqət çəkir. 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə gələrək Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edən ümummilli lider Heydər Əliyev tezliklə ölkədəki ağır vəziyyəti nəzarətə götürdü, ordu quruculuğu istiqamətində əhəmiyyətli addımlar atdı. Məhz Ulu Öndərin qətiyyəti və iradəsi sayəsində 1993-cü ilin dekabrından 1994-cü ilin yanvarına qədər davam edən və Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış uğurlu Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun bu qəsəbəsi ilə yanaşı, 20 kəndi, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Lakin təhlükəsizlik baxımından uzun müddət məskunlaşmanın qeyri-mümkün olduğu bu kənd 2016-cı ildə Prezident İlham Əliyevin tarixi xidmətləri sayəsində ikinci həyatını yaşamağa başladı. Buna ötən ilin aprelində qəhrəman Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini azad etməsi nəticəsində nail olundu. Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. 2016-cı ilin noyabrında Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonu ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olarkən işğal altında qalan torpaqlarımıza qayıdacağımıza bir daha əminlik yaratdı. Aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yarandı. Bu məsələdə dövlətimizin başçısının 2017-ci il yanvarın 24-də imzaladığı ”Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında” Sərəncam xüsusi əhəmiyyətə malikdir. Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin mütəxəssisləri qısa müddətdə 2 milyon 600 min kvadratmetr ərazinin minalardan, partlamamış döyüş sursatlarından təmizlənməsini həyata keçirdi, həmin ərazilər yaşayış üçün əlverişli vəziyyətə gətirildi. Bununla da kənddə böyük quruculuq işlərinə başlandı. Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində həyata keçirilən bərpa işlərinin birinci mərhələsi artıq başa çatıb və Cocuq Mərcanlı öz sakinlərini qəbul etməyə hazırdır. Böyük Qayıdışın başlanğıcı olan bu kəndin bərpası ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlər bir daha təsdiqləyir ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, düşmən tapdağı altında qalan əzəli torpaqlarımızın azad olunması uğrunda son ana qədər mübarizə aparacaq.

Azərbaycan Prezidenti İlham Əliyev Cocuq Mərcanlı kəndinə səfəri çərçivəsində əvvəlcə yeni salınmış kənd yolunun açılışını etdi.

”Azəravtoyol” ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, yolun ümumi uzunluğu 9 kilometr, eni 12 metrdir. İki hərəkət zolaqlı yolun tikintisi Prezident İlham Əliyevin bu ilin fevralında imzaladığı ”Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncama əsasən həyata keçirilib. Strateji əhəmiyyəti ilə seçilən bu yolun inşası zamanı zəruri olan yerlərdə su keçidləri tikilib, uzunluğu 24 metr olan ikiaşırımlı mövcud körpü bərpa edilib. Yol üzərində 76 yol nişanı və məlumatverici lövhələr quraşdırılıb, piyada zolaqları, yol-cizgi və yolgöstərici xətləri çəkilib.

Sonra dövlətimizin başçısı yeni salınmış yolun rəmzi açılışını bildirən lenti kəsdi.

**Sonda xatirə şəkli çəkdirildi.**





## O.Ə.Həziyevin 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:**

Doğma torpaqlara dərin bağlılıq nümayiş etdirməklə insanların vətənpərvərlik hisslərinin yüksəldilməsində göstərdiyi şəxsi nümunəyə görə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakini Oqtay Əbil oğlu Həziyev 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 13 iyun 2017-ci il*

"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN

## İlham Əliyev Qurtuluş salnaməsinin növbəti möhtəşəm uğuruna imza atdı

■Bu gün ölkəmizin həyatında əlamətdar gündür, tarixi gündür. Bu gün Cocuq Mərcanlı kəndinin bərpası günüdür. İndi bütün Azərbaycan Cocuq Mərcanlı kəndinin tarixini bilir, bütün dünya Cocuq Mərcanlını tanıyır. Bu kəndin Azərbaycan tarixində xüsusi yeri vardır.

■Martın 22-dən başlayan tikinti işləri mayın 20-də başa çatdırılmışdır - cəmi iki aya. Yəni, bütün bu tikinti işləri sizin gözünüzün qabağında olub və bu, doğrudan da, tarixi hadisədir. Cəmi 2 ay ərzində kəndin bir hissəsi bərpa edildi, birinci mərhələdə 50 ev, məktəb, tarixi Şuşa məscidinin bənzəri olan məscid tikilib, Horadizdən Cocuq Mərcanlıya yol çəkilib. Növbəti mərhələdə təqribən 100 əlavə ev, - bəlkə ondan da çox, - tibb məntəqəsi tikiləcək və iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Bax, Cocuq Mərcanlı kəndinin tarixi bundan ibarətdir, bu, doğrudan da şanlı, tarixdir.

■Qurtuluş Günü müasir Azərbaycan tarixində dönüş nöqtəsi idi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda sabitlik bərpa edildi, inkişafa start verildi və bugünkü Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir. Təəssüf ki, ulu öndər Heydər Əliyev müstəqilliyimizin ilk günlərindən Azərbaycanda rəhbərlikdə olmamışdır. Əgər olsaydı, bir qarış torpaq belə işğal altına düşməzdi.

■Bütün çətinliklərə, risklərə baxmayaraq, burada güllə altında, mərmi altında yaşamısınız, qurmusunuz və vətənpərvərlik nümunəsi göstərmisiniz. Göstərmisiniz ki, Azərbaycan xalqı öz torpağına canı, qanı ilə bağlıdır. Göstərmisiniz ki, Azərbaycan vətəndaşı istənilən şəraitdə öz torpağında yaşayır, qurur, yaradır, hətta təhlükə altında. Yəni, bir gün yox, bir həftə yox, hər gün gecə-gündüz təhlükə altında 20 ildən çox yaşamısınız. Buna görə sizinlə bütün Azərbaycan xalqı fəxr edir. Siz ən yüksək qiymətə layiqsiniz. Mən sizinlə fəxr edirəm. Biz zəhmətkeşləri gərək xüsusi fərqləndirək, mükafatlandıraq. Qərara gəldim ki, birinci ordeni Həziyev ailəsinin başçısı olan Oqtay Həziyevə verim. Sən buna layiqsən.

■Bu gün Lələtəpədə və işğaldan azad edilmiş digər torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək ki, bizim bayrağımız Şuşada da qaldırılacaq.

■Ordu quruculuğu Azərbaycan rəhbərliyi üçün bir nömrəli prioritet məsələdir və son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə edilibdir. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir, ordumuza lazım olan bütün ən müasir texnika, silah-sursat alınır, gətirilir, eyni zamanda, Azərbaycanda bir çox hərbi təyinatlı məhsullar istehsal olunur. Ordumuzun döyüş qabiliyyəti artır, nizam-intizam yüksək səviyyədədir və bunun nəticəsidir ki, keçən ilin aprelində erməni silahlı təxribatına Azərbaycan Ordusu layiqli cavab vermişdir.

■Bu gün Cocuq Mərcanlı kəndinə yeni nəfəs verilir, həyat qayıdır, köçkünlər qayıdır. Onlar 20 ildən çoxdur ki, bu yurdun həsrəti, öz doğma torpağına qayıtmaq arzusu ilə yaşayırlar. Baxmayaraq ki, başqa yerdə doğulmusan, sən də Cocuq Mərcanlı kəndinin sakinisən. Amma əminəm, sənin kimi yüzlərlə gənc var ki, Cocuq Mərcanlını görməyib, ancaq buraya qayıtmaq arzusu ilə yaşayır. Bax, bu gün gəldi, bu, tarixi bir gündür. Bu gün, eyni zamanda, onu göstərir ki, biz hələ də işğal altında olan bütün torpaqlara qayıdacağıq. Bunu deməyə əsas verən bir çox amillər var. Güclü iqtisadiyyat, güclü Azərbaycan, güclü Ordumuz və keçən ilin aprel ayında aparılan döyüşlər Azərbaycan xalqının, Ordusunun gücünü, cəsarətini göstərdi.

■Bu gün biz Cocuq Mərcanlıda yeni gözəl mərhələnin başlanğıcını qeyd edirik. Yeni evlər, məktəb, Şuşa məscidinin bənzəri olan məscid tikilibdir. Növbəti mərhələdə ən azı 100 əlavə ev tikiləcək və Cocuq Mərcanlı kəndinin sakinləri buraya qayıdacaqlar. Siz isə gənc zabitlər kimi gələcəkdə ölkəmizin müdafiəsinin keşiyində dayanacaqsınız. Bütün gənclər kimi siz də hər an Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hazır olmalısınız. Bu gün Azərbaycan gənci vətənpərvərdir, Vətənə bağlıdır, peşəkardır, biliklidir və bizim gücümüz bundan ibarətdir. Sizin kimi gənclər gələcəkdə ölkəmizin inkişafında önəmli rol oynayacaqlar.

# "Cənab Prezident, kəndimizi yenidən qurdunuz, bizə isə gözəl həyat bəxş etdiniz"

## *İlham Əliyev Cocuq Mərcanlının qəhrəman ailəsinin başçısına ali dövlət mükafatı - "Əmək" Ordeni təqdim etdi*



**Prezident İlham Əliyev kənd sakini Oqtay Həziyevin evi ilə tanış olub**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Cocuq Mərcanlı kəndinin bərpası çərçivəsində görülən işlərlə tanışlıq zamanı kənd sakini Oqtay Həziyevin evində oldu. Səkkiz nəfərlik bu ailə təhlükəli olmasına baxmayaraq, 1994-cü ilin aprelindən kənddə yaşayır və bütün məcburi köçkünlərə nümunə olmaqla yanaşı, əsl vətənpərvərlik və fədakarlıq göstərir. Birinci mərhələdə kənddə 10 hektar ərazidə 50 fərdi evin və müvafiq infrastrukturun tikintisi aparılıb. Tikilmiş evlərə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan və əsasən Bakı şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər köçürüləcək. Ümumi sahəsi 3850 kvadratmetr olan mənzillərin 20-si ikiotaqlı, 25-i üçotaqlı, 5-i isə dördotaqlıdır.

Oqtay Həziyevin ailə üzvləri ilə söhbət edən **Prezident İlham ƏLİYEV dedi:**

-Bu gün ölkəmizin həyatında əlamətdar gündür, tarixi bir gündür. Bu gün Cocuq Mərcanlı kəndinin bərpası günüdür. Mən sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə təbrik edirəm.

Cocuq Mərcanlı kəndinin bərpası doğrudan da tarixi hadisədir. Siz - bu kənddə yaşayan insanlar bu kəndin tarixini yaxşı bilirsiniz. İndi bütün Azərbaycan Cocuq Mərcanlı kəndinin tarixini bilir, bütün dünya Cocuq Mərcanlını tanıyır. Bu kəndin Azərbaycan tarixində xüsusi yeri vardır. Siz yaxşı bilirsiniz ki, Cocuq Mərcanlı kəndi cəmi bir neçə ay erməni işğalı altında olub. Bu bir neçə ay ərzində erməni işğalçı qüvvələri kəndi tamamilə dağıtmışdılar, bütün binaları sökmüşdülər. Yəni, Cocuq Mərcanlı kəndi erməni vəhşiliyinin canlı şahididir. 1993-cü ilin dekabrında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilmiş uğurlu Horadiz hərbi əməliyyatı nəticəsində 20-dən çox kənd, o cümlədən Cocuq Mərcanlı kəndi, Horadiz qəsəbəsi, - bu gün Horadiz şəhəridir, - işğaldan azad olundu. Ancaq burada yaşamaq təhlükəli idi. Buna baxmayaraq, Həziyevlər ailəsi burada yaşayıb.



Keçən ilin aprelində erməni hərbi təxribatının qarşısını alarkən Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatı keçirmiş və minlərlə hektar Azərbaycan torpağını işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının minlərlə hektar torpağı azad edildi və bu gün on minlərlə hektar torpağa Azərbaycan Ordusu nəzarət edir. Lələtəpə yüksəkliyinin qaytarılması nəticəsində Cocuq Mərcanlıda təhlükəsiz şəraitdə yaşamaq mümkün oldu. Mən keçən ilin sonlarında bu bölgədə, Lələtəpədə, işğaldan azad edilmiş torpaqlarda olarkən, hərbçilərlə görüşərkən maraqlandım ki, Cocuq Mərcanlıda təhlükəsiz şəraitdə yaşamaq mümkündürmü, yoxsa yox. Mənə dedilər ki, mümkündür.

Bu ilin yanvar ayında müvafiq Sərəncam imzalandı, Prezidentin ehtiyat fondundan vəsait ayrıldı. Martın 22-dən başlayan tikinti işləri mayın 20-də başa çatdırılmışdır - cəmi iki aya. Yəni, bütün bu tikinti işləri sizin gözünüzün qabağında olub və bu, doğrudan da tarixi hadisədir. Cəmi 2 ay ərzində kəndin bir hissəsi bərpa edildi, birinci mərhələdə 50 ev, məktəb, tarixi Şuşa məscidinin bənzəri olan məscid tikilib, Horadizdən Cocuq Mərcanlıya yol çəkilib. Növbəti mərhələdə təqribən 100 əlavə ev, - bəlkə ondan da çox, - tibb məntəqəsi tikiləcək və iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Bax, Cocuq Mərcanlı kəndinin tarixi bundan ibarətdir, bu, doğrudan da şanlı tarixdir. İşğaldan əziyyət çəkən kənd bərpa olunubdur. Azərbaycan öz torpaqlarının bir hissəsini işğalçılardan azad etdi. Bu, doğrudan da tarixi hadisədir və əminəm ki, Cocuq Mərcanlı kəndinin gələcək həyatı uğurlu olacaq, xoşbəxt olacaq və kənd sakinləri buraya qayıdandan sonra həyat daha da canlanacaqdır.

Sabah Qurtuluş Günüdür. Biz Qurtuluş Gününün ərəfəsində görüşürük. Qurtuluş Günü müasir Azərbaycan tarixində dönüş nöqtəsi idi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda sabitlik bərpa edildi, inkişafa start verildi və bugünkü Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir. Təəssüf ki, ulu öndər Heydər Əliyev müstəqilliyimizin ilk günlərindən Azərbaycanda rəhbərlikdə olmamışdır. Əgər olsaydı, bir qarış torpaq belə işğal altına düşməzdi. Əfsuslar olsun ki, müstəqilliyin ilk illərində ölkəmizə rəhbərlik etmiş şəxslər zəiflik, qorxaqlıq göstərdilər. O ki qaldı, AXC-Müsavat cütlüyünün hakimiyyətinə, o, biabırçı dövr idi, xəyanətkar hakimiyyət torpaqlarımızı qoruya bilmədi.

(Ardı səh. 3-də)

(Əvvəli səh. 2-də)

Qurtuluş Günü bugünkü reallıqları şərtləndirən gündür. Təsəvvür edin, əgər ulu öndər Heydər Əliyev müstəqilliyimizin ilk illərindən Azərbaycanda hakimiyyətdə olsaydı, biz özümüzü böyük bəlalardan qoruya bilərdik.

Ancaq işğala baxmayaraq, bu gün Azərbaycan inkişaf edir, güclənir, güclü iqtisadiyyat qurub, beynəlxalq arenada öz mövqelərini möhkəmləndirir. Biz hərbi sahədə böyük uğurlara nail olmuşuq, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və aprel döyüşləri bunu bir daha göstərdi. Biz bunu bilirdik, Azərbaycan ictimaiyyəti də bilirdi. Ancaq aprel döyüşləri bunu əyani şəkildə bütün dünyaya və düşmənə göstərdi ki, bu gün Azərbaycan dövləti öz ərazi bütövlüyünü bərpa etməyə hazırdır, buna qadirdir.

Cocuq Mərcanlı kəndi artıq sizin adınızla bağlıdır. Kəndi sizdən ayırmaq mümkün deyil, sizi də kənddən. Siz bunu sübut etmisiniz. Mən maraqlanmışam, bilirəm ki, siz başqa yerdə yaşaya bilməmisiniz və müəyyən müddətdən sonra kəndə qayıtmısınız. Yenidən burada həyat qurmusunuz, kəndə nəfəs vermisiniz, böyük təsərrüfat yaratmısınız və öz doğma torpağınızda həyatınızı riskə qoyaraq təhlükə altında yaşamışınız. Bütün bu çətinliklərə, risklərə baxmayaraq, burada güllə altında, mərmi altında yaşamısınız, qurmusunuz və vətənpərvərlik nümunəsi göstərmisiniz. Göstərmisiniz ki, Azərbaycan xalqı öz torpağına canı, qanı ilə bağlıdır. Göstərmisiniz ki, Azərbaycan vətəndaşı istənilən şəraitdə öz torpağında yaşayır, qurur, yaradır, hətta təhlükə altında. Yəni, bir gün yox, bir həftə yox, hər gün gecə-gündüz təhlükə altında 20 ildən çox yaşamısınız. Buna görə sizinlə bütün Azərbaycan xalqı fəxr edir. Siz ən yüksək qiymətə layiqsiniz. Mən sizinlə fəxr edirəm.

Bilirsiniz ki, bir neçə ay bundan əvvəl mənim göstərişimlə Azərbaycanda dövlət ordenləri sırasına yeni orden də əlavə olundu - "Əmək" ordeni. Bu qərar ona görə qəbul edildi ki, bu gün biz zəhmətkeşləri gərək xüsusi fərqləndirək, mükafatlandıraq. "Əmək" ordeninin 3 dərəcəsi var və bu ordeni təsis edərkən mən fikirləşirdim ki, birinci ordeni kimə verim. Amma çox fikirləşmədim və qərara gəldim ki, birinci ordeni Həziyev ailəsinin başçısı olan Oqtay Həziyevə verim. Sən buna layiqsən və hesab edirəm, tam ədalətlidir ki, birinci "Əmək" ordeni və birinci dərəcəli orden Oqtay Həziyevə verilir.

# "Cənab Prezident, kəndimizi yenidən qurdunuz, bizə isə gözəl həyat bəxş etdiniz"

## İlham Əliyev Cocuq Mərcanlının qəhrəman ailəsinin başçısına ali dövlət mükafatı - "Əmək" Ordeni təqdim etdi





Sonra doğma torpaqlara dərin bağlılıq nümayiş etdirməklə insanların vətənpərvərlik hisslərinin yüksəldilməsində göstərdiyi şəxsi nümunəyə görə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakini Oqtay Həziyevin 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Prezidentinin imzaladığı Sərəncam oxundu.

***Dövlətimizin başçısı birinci dərəcəli "Əmək" ordenini və evin orderini Oqtay Həziyevə təqdim etdi.***

**Oqtay HƏZİYEV** dedi: Çox sağ olun, cənab Prezident. Allah canınızı sağ eləsin. Biz Sizə minnətdarıq.

Cənab Prezident, icazə verin, bizim ailəyə göstərdiyiniz diqqətə və qayğıya, mənə verdiyiniz yüksək dəyərli ordenə görə Sizə öz adımdan, ailə üzvlərimin və yaxınlarımın adından dərin təşəkkürümü bildirim. Çox sağ olun, cənab Prezident.

Ulu Öndərimizə Allahdan rəhmət diləyirik. Siz çox gözəl qeyd etdiniz, bu müharibənin əzabını yaşayan bir insan kimi bilirdik ki, əgər Ulu Öndərimiz əzəldən bu hakimiyyətdə olsaydı, biz bu torpaqlardan heç vaxt getməzdik. Allah Sizin canınızı sağ eləsin. Biz Sizin komandanlığınız altında Lələtəpə yüksəkliyinin işğaldan azad olunmasının canlı şahidiyik. Maşallah, indi bizim çox qüdrətli Ordumuz var. Təməli Ulu Öndərimiz tərəfindən qoyulan ordumuzu Ali Baş Komandan kimi Siz əvəzi olmayan bir orduya çevirmisiniz. Yəni, bunu mən birmənalı olaraq öz gözümlə görmüşəm. İndi mən bilmirəm o ermənilər nəyə arxalanırlar. Məgər onlar görmürlər ki, Azərbaycan dövlətinin İlham Əliyev kimi Prezidenti və onun komandanlığı altında güclü ordusu var.

Çox sağ olun, cənab Prezident. Qısa müddətdə bizə belə gözəl həyat bəxş etmisiniz. Bizim kənddə heç zaman məscid, qaz, internet olmayıb. Bizə bunların hamısını Siz bəxş etmisiniz. Biz Sizə Allahdan cansağlığı, uzun ömür diləyirik.

Biz bu fürsətdən istifadə edərək Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanımı bir daha təbrik edirik. Mehriban xanım bu vəzifəyə layiq insandır. İnanırıq ki, cənab Prezident, Siz Mehriban xanımla bərabər işğal altında olan bütün ərazilərimizi azad edəcəksiniz, Azərbaycanın hər bir guşəsində belə gözəllikləri yaradacaqsınız.

**Prezident İlham ƏLİYEV:** Burada bütün şərait yaradılıb. Qohumlarınız, qonşularınız da qayıdacaqlar.

Bu gün Lələtəpədə və işğaldan azad edilmiş digər torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək ki, bizim bayrağımız Şuşada da qaldırılacaq.

İşğal böyük ədalətsizlikdir, beynəlxalq qanunların pozulması deməkdir. Ancaq əfsuslar olsun ki, dünyada ikili standartlar mövcuddur. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib ki, erməni silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxsın. Ermənistan buna əməl etmir. Bu qətnamələri qəbul edənlər də Ermənistanı məcbur etmir ki, o, buna əməl etsin. Bax, problem bundan ibarətdir.

Ancaq biz ölkəmizi böyük dərəcədə gücləndirmişik. Bir daha deyirəm, əgər müstəqilliyimizin ilk illərində Ulu Öndər ölkəmizdə hakimiyyətdə olsaydı, heç bir problem yaşanmazdı. Ermənilər Naxçıvanı da işğal etməyə çalışırdılar. Ancaq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə orada bütün müdafiə tədbirləri quruldu və düşmən yerinə oturduldu. Əfsuslar olsun ki, o vaxtkı Azərbaycan rəhbərliyi ölkə miqyasında müdafiə məsələlərini düzgün təşkil edə bilmədi və torpaqlarımız işğal altına düşdü. Ancaq biz ölkəmizi, Ordumuzu gücləndiririk və ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bax, bu kənd - Cocuq Mərcanlı bunu əyani şəkildə sübut edir və təsdiqləyir.

**Oqtay HƏZİYEV:** Çox sağ olun, cənab Prezident, Sizə minnətdarıq. Allah Sizi qorusun. Bu, qardaşımdır, o da həyat yoldaşımdır.

**Əli HƏSƏNOV:** Heyvandarlıqla məşğuldurlar, öz təsərrüfatları, 600 baş qoyunu, 70-80 baş inəyi və 20 arı ailəsi var.

**Prezident İlham ƏLİYEV:** Dolanışığınız yaxşıdır?

**Əli HƏSƏNOV:** 70 hektarda taxıl, arpa əkir. Demək, yalnız çaya, qəndə, bir də paltara pul verirlər. Qalan şeyə pul vermirlər.

**Prezident İlham ƏLİYEV:** Eşitmişəm ki, orduya da kömək göstərirsiniz.

**Əli HƏSƏNOV:** Bəli, elədir. Çox gözəl ailədir, hamısı da sağlam, göz dəyməsin, ana 83 yaşındadır.

Çox yaxşı. İndi məktəb də olacaq, uşaqlar burada oxuyacaqlar. Tezliklə tibb məntəqəsi də tikilməlidir. İş yerləri də açılır. Mən xüsusi göstəriş vermişəm ki, dövlət qurumları burada iş yerləri açsınlar. Çünki buraya qayıdacaq vətəndaşlar gərək işləsinlər.

**Əli HƏSƏNOV:** "Azərişıq" 35/10 kilovatlıq böyük yarımstansiya tikibdir. "Azəravtoyol" Cəbrayıl rayonunun ləğv olunmuş avtomobil yolları idarəsini bərpa edib, böyük gözəl bir bina tikib, artıq hazırdır. Daxili İşlər Nazirliyi polis idarəsi üçün bina tikibdir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bütün rabitə-kommunikasiya xidməti üçün yer götürüb, bina tikir. Bütün nazirliklər məşğuldur.

**Prezident İlham ƏLİYEV:** Biz tezliklə növbəti tikinti işlərinə də start verməliyik.

**Əli HƏSƏNOV:** Artıq yüz ailəlik layihə işləri gedir və tezliklə o da tamamlanacaqdır.

**Prezident İlham ƏLİYEV:** Bir daha sizi təbrik edirəm.

**Oqtay HƏZİYEV:** Çox sağ olun, cənab Prezident.

**Sonda xatirə şəkli çəkdirildi.**

# Heydər Əliyev və multikulturalizm

Dünya xəritəsində Azərbaycan adlı bir məmləkət də var.Mən mənsub olduğum demokratik, müstəqil Azərbaycanımla fəxr edirəm. Azad, suveren Azərbaycanın formalaşması, yeniləşməsi, şübhəsiz, ulu öndər H.Əliyevin adı ilə bağlıdır. Yazacağım inşanın mövzusu belədir: ”H.Əliyev və multikulturalizm”. Bu inşa müəllimim demişkən, bir az fəlsəfi, bir az tarixi, bir az siyasi, bir az da bədii bir yazı olmalıdır. Yaşım az olduğundan ümummilli liderin siyasi fəaliyyətini kitablardan, efirlərdən və yaşlı nəslin söhbətlərindən öyrənmişəm. O böyük İnsanı xəyalımda canlandırdıqca şagird qələmim dilə gəlir, qaçqın taleyim kövrəlir. Hansı müdriksə deyir: ”Min qəddi əyən mənəvi yük bir çiyinə düşəndə dahilik yaranır”. H.Əliyev dahidir.

İndi isə kitablardan, müxtəlif informasiya mənbələrindən multikulturalizm termininin nə olduğunu, mənası və mahiyyətini açmaq istəyirəm. Multikulturalizm termini Avropa mənşəlidir. Daha çox ”tolerantlıq” kimi anlaşılır. UNESKO-nun 1995-ci ilin noyabrında qəbul edilmiş ”Tolerantlıq prinsiplərinin Bəyannaməsi”ndə tolerantlığa belə tərif verilir: ”Tolerantlıq-dünyamızda mədəniyyətlərin zəngin müxtəlifliyinə, mövcud özünümüdafiə formalarına hörmətlə yanaşmaq, bunları tanımaq və düzgün anlamaq deməkdir”.

Respublikamızda multikultural dəyərlərin dövlət siyasətinə keçməsi və bu siyasətin əsasının ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulması hamıya məlumdur. Bu siyasət hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda ləzgi, tat, talış, yəhudi, rus, gürcü, alman, udin, buduq, ingiloy, avar, dargin və digər etniklər tarixin müəyyən dövründə yaşayıb və hələ də birlikdə yaşamaqdadırlar. Hətta erməni əsilli vətəndaşların hazırda Azərbaycanda birgə yaşadıqları məlumdur. Bu Azərbaycan modelinin, sadəcə, etnik və millət tərkibidir.

H.Əliyev deyirdi: ”İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur.” Bu, şüar deyildir. Ulu öndər bunu əməli ilə sübut edirdi. Z.Vəfa yazır: ”Əgər Heydər Əliyev olmasaydı Azərbaycanda Talış-Muğan, Kürdüstan, Gəncə, üstəgəl Dağlıq Qarabağ respublikaları yaranacaqdı və Azərbaycan kiçik xanlıqlara çevriləcəkdi. Millət bir-birinin qanını tökməklə məşğul olacaqdı.” Ə.Hümbətovun Talış-Muğan respublikası yaratmaq xülyası iflasa uğradı. Qədirbilən, zəhmətsevər talış xalqı ayağa qalxdı və ulu öndəri müdafiə etdi. Çünki onlar Heydər Əliyevi yaxşı tanıyırdılar. Talışların ”Halay” folklor rəqs qrupu Azərbaycanı dəfələrlə xarici ölkələrdə təmsil etmişdi. Multikultural dəyərlərə bariz nümunədir.



34 il Azərbaycana rəhbərlik edən H.Əliyev etnik qruplara həssaslıqla yanaşırdı. O, DQMV-də vəziyyəti tam nəzarətdə saxlayırdı. Vilayətdə əhalinin təminatı Azərbaycan SSR üzrə orta göstəricidən yüksək olurdu. 1973-cü ildə Xankəndində Azərbaycan Pedaqoji İnstitutu açıldı. 1979-cu ildə vilayətə dəmir yolu çəkildi. Ermənilərin çoxluq təşkil etdiyi yeni bir rayon-Əsgəran rayonu yaradıldı. Bunların əvəzində ermənilər yaxşılığa yamanlıq etdilər. Heydər Əliyev yazırdı: ”Separatçılığa heç vaxt bəraət qazandırmaq olmaz.”

Balakən rayonuna dəmir yolu çəkdirdi. Qax, Zaqatala, Balakən rayonlarında çoxlu azsaylı xalqların nümayəndələri yaşayırlar. Gürcülər, avarlar, udinlər,saxurlar və s. azsaylı xalqların nümayəndələri bu dəmir yolundan istifadə etməklə rahat həyat tərzi keçirdilər, onların təhsili, mədəniyyəti üçün nə lazımsa edildi. Ulu öndər azsaylı xalqların nümayəndələrinə hörmətlə, qayğıkeşliklə yanaşırdı. Həmin xalqların ziyalıları yüksək vəzifələrə təyin olunur, seçkili orqanlarda layiqincə təmsil olunurdular.

Ulu öndərin hakimiyyəti dövrlərində azsaylı xalqların sosial hüquqları: təhsil, incəsənət, ədəbiyyat sahəsində cəmiyyətin potensial imkanlarının inkisafı, həmçinin cinsinə, yaşına, dinə görə ayrı-seçkiliyə yol verilməməsi təmin olunurdu.

O, Qafqaz müsəlmanlarının XI qurultayına göndərdiyi təbrik məktubunda yazırdı: ”Başqa dinlərlə dözümlülük, dinc yanaşı və anlaşma şəraitində yaşamaq İslam dininin xüsusiyyətlərindən biridir.” Məscidlərlə yanaşı sinaqoqlar, kilsələr də mühafizə olunub saxlanılırdı. O deyir ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq bütün başqa mədəniyyətlərə, mənəvi dəyərlərə hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar.”

Heydər Əliyev mədəniyyətə böyük önəm verirdi: ”Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir və onların mədəniyyəti bu yolla inkişaf edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər, heroqliflər, kurqan toplantıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət olmuşdur.” Azsaylı xalqların nümayəndələri Azərbaycanı həmişə özünə doğma Vətən hesab ediblər. Onların folkloru, ənənələri, adətləri milli mədəniyyətimizin tərkib hissəsinə çevrilib. Televiziya ekranlarında, radio dalğalarında mütəmadi olaraq çıxışları ilə millətimizin rəğbətini qazanıblar. Onların nümayəndələri fəxri adlara, mükafatlara layiq görülüb və bu ənənə bu gün də davam etdirilir. Etnik xınalıqlılara dağları çaparaq yollar çəkilir. Lerik dağlarına, zümrüd meşələrinə mavi yanacaq ötürülür.Multikultural dəyərlər bu zəmində daha da inkişaf edir, zənginləşir.

Heydər Əliyev qeyd edir ki, Azərbaycanın dövlət siyasəti azərbaycançılıq əsasında qurulmuşdur. Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli - mənəvi dəyərlərimizdir, milli mədəniyyətlərimizdir- ədəbiyyatımız , incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımız, xalqımıza mənsub olan adət- ənənələrdir. Milli liderimiz bu sözləri 2001 - ci il noyabrın 9 - da keçirilən Dünya azərbaycanlılarının birinci qurultayındakı çıxışında demişdir.

Ruhunuza üz tutub bu dəfə sizə Baba - deyə müraciət edirəm. Heydər Baba, siyasətçilər Sizi - yeni Azərbaycanın qurucusunu M. K.Atatürk, C. Nehru, C. Ə.Nasir və Şarl de Qolla bir sırada qəbul edirlər. Deyirlər ki, H. Əliyev Azərbaycan xalqının tarixində və taleyində Prometeyə bənzər fenomendir. Siz özünüz isə deyirsiniz: ” Mən həyatda yalnız üç şeyə arxalanmışam: yaradanıma, zəhmətimə, bir də xalqıma.”

Ulu Tanrıya eşq olsun ki, Sizi yaradıb Azərbaycan xalqına bəxş etdi. Siz də zəhmətə qatlaşıb xalqın yaman, çətin, mürəkkəb dövründə onun dadına çatdınız. Xalqın şüarı belə oldu: ”Heydər- Xalq”, ”Xalq- Heydər”!

Müqəddəs ”Qurani - Kərim ” də gözəl ifadə var: ”Salam olsun doğru yolun yolçularına”. Prezidentimiz cənab İlham Əliyev doğru yolun yolçusu oldu. Atası Heydər Əliyevin qoyduğu yolla Azərbaycanı qısa vaxt ərzində daha da inkişaf etdirdi. Azərbaycan indi dünyaya kosmosdan, BMT Təhlükəsizlik Şurasının ali tribunasından baxır. Atası Heydər Əliyev kimi multikultural dəyərlərə hörmətlə yanaşır. İndi Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Ulu öndərimizin irsini layiqincə yaşadan və təşviq edən Heydər Əliyev fondunun da bu sahədəki fəaliyyəti ürəkaçandır. Prezident İlham Əliyev 2016-cı ilin Azərbaycanda ”Multikulturalizm ili” elan edilməsi ilə bağlı sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, tarixi İpək Yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb. Sərəncamdan irəli gələn vəzifələrin həyata keçirilməsi üçün respublikamızda ardıcıl, silsilə tədbirlər görülür. Artıq hər bir ölkəyə nümunə ola biləcək multikulturalizmin ”Azərbaycan Modeli” var.

BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münsibətinin real ifadəsidir.

Məktəbli inşası olan bu yazı elə olmalıdır ki, mən yaşda olanların başa düşdükləri dərəcədə məzmunca ətraflı, həcmcə yığcam, cümlələrdə işlənən hər bir söz dəyərli, fikirlər məktəbli səviyyəsində olsa da, yerli-yataqlı, dolğun və ifadəli olmalıdır. Nə dərəcədə əməl etdim, bilmirəm.

Bircə onu bilirəm ki, kiçiklərin böyüklər haqqında fikir yürütməsi hədəfə olan sevgidən irəli gəlir.



**Mikayıllı Güllü Davud qızı,**
***Cəbrayıl rayon 8 saylı tam orta məktəbin XI “a” sinif şagirdi***

# MƏKTƏBİMİZİN UĞURLARI



Cəbrayıl rayon 8 saylı tam orta məktəb rayon məktəbləri sırasında özünəməxsus yer tutur. Bu məktəb yarandığı 23 il ərzində Cəbrayıl təhsilinə məxsus ənənələri davam etdirərək uğurlar qazanmışdır. Bu illər ərzində məktəbin 120-dən çox məzunu respublikanın və xarici dövlətlərin ali mətəblərində təhsil almışlar. Məzunlarımızdan bir nəfər Prezident təqaüdünə, bir müəllimimiz isə Respublikanın Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür. Elə tədris ili olmayıb ki, 8 - 10 məzunumuz yüksək balla respublikanın müxtəlif universitetlərinə daxil olmasınlar. Təkcə keçən tədris ilində məktəbin bir sinifindən 7 nəfər məzun ölkənin nüfuzlu ali təhsil ocaqlarına daxil olmuşlar. Münbit pedaqoji abi-havanın, mehribançılığın, sağlam rəqabətin hökm sürdüyü bu məktəbdə 280 - dən artıq şagirdin təlim-tərbiyəsi ilə 45 müəllim məşğuldur. Onlardan Respublikanın Əmədar müəllimi Rəhim Rəhimov, Ülfət Həsənov, Mahmud Musayev, Əkbər Rəhimov, Sahilə Mehdiyeva, Zivər Quliyeva, Zaur Vəliyev, Gülövşə Hüsüyeva kimi hazırlıqlı müəllimləri qeyd etmək olar.

Bu yaxınlarda keçirilmiş müəllimlərin diaqnostik qiymətləndirilməsi zamanı müəllimlərimizin böyük əksəriyyəti imtahanda yüksək nəticələr əldə etmişlər. Məktəbin riyaziyyat müəllimi Mahmud Musayev rayon müəllimləri arasında ilk dəfə olaraq ən yüksək, 100% - lik nəticə göstərmişdir. Onun haqqında ölkə televiziyasında reportajlar yayımlanmış, ”Azərbaycan müəllimi” və ”Respublika” qəzetlərində məqalələr verilmişdi.

2 - 3 may 2017 - ci il tarixində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94 - cü ildönümünə və ”İslam hərəyliyi ili”nə həsr olunmuş ”Bir günəşin zərrəsiyik” mövzusunda II Beynəlxalq Şagird Konfransı keçirilmişdir. Azərbaycan Respublikası Prezdenti yanında Bilik Fondunun xətti ilə Bakı şəhərində keçirilən həmin konfransda Cəbrayıl rayon 8 saylı tam orta məktəbin XI sinif şagirdi Mikayıllı Güllü Davud qızı da iştirak etmişdir. Onun ”H. Əliyev və multikulturalizm” mövzusunda inşa yazısı II Beynəlxalq Şagird Konfransının materialları kitabında çap olunmuşdur.

Onu da qeyd edək ki, dərs əlaçısı Mikayıllı Güllü Davud qızının müvəffəqiyyət qazanmasında onun Azərbaycan dili və ədəbiyyatı müəllimi, Azərbaycan Respublikasının Əməkdar müəllimi Rəhim Rəhimovun əməyi böyükdür. Xatırlatmaq yerinə düşər ki, bir neçə il öncə məktəbimizin məzunu İntiqam Rəhimlinin yazdığı ”Mən öz dostuma insan hüquqları ilə bağlı düşüncələrimi yazıram” inşası da respublika müsabiqəsinin qalibi olmuş, Təhsil Nazirliyinin hazırladığı seçmə inşalar toplusuna daxil edilmişdir.

**MİRZƏ MİRİMLİ**

# Cəbrayıl: bir məktəbin uğurları



Müəllim biliklərinin dıaqnostik qiymətləndirilməsi hər bir pedaqoqun məlumatlılığını,peşəkarlığını müəyyən edən əsl sınaq meydanıdır. Sosial şəbəkələrdə Cəbrayıl rayonundakı 8 saylı tam orta məktəbin riyaziyyat müəllimi Mahmud Musayevin qiymətləndirmə zamanı 60 bal toplaması xəbəri bizi sevindirdi. 60 bal- qiymətləndirmədə biliyin yüz faizlik götəricisi olduğundan yolumuzu 8 saylı məktəbdən salmaq qərarına gəldik. Bu məktəb isə hər hansı şəhərdə, rayon mərkəzində yox, Biləsuvar rayonu ərazisində cəbrayıllı məcburi köçkünlər üçün salınmış qəsəbədə yerləşir. Ölkənin elm-savad mərkəzlərindən olan,respublikaya yüzlərlə alim, mütəxəssis bəxş edən Cəbrayıl rayonu,bu rayonun insanları hətta çətin şəraitdə belə öz ata-babalarının ənənələrini davam etdirirlər. Bizi adıçəkilən təhsil ocağına cəlb edən əsas şərt də bundan ibarət idi.

Əvvəlcə rayon təhsil şöbəsinin müdiri Validə Həsənova ilə əlaqə saxladıq.Validə xanım təkcə həmin məktəbin deyil, rayonda müəllim və şagirdlərin son illərdə qazandığı uğurlardan danışdı. Dedi ki, lap bu günlərdə respublika fənn olimpiadalarının final mərhələsində iştirak edən yüzlərlə şagirddən rayonumuzdakı Vüqar Hüseynov adına Daşkəsən kənd tam orta məktəbin 10-cu sinif şagirdi Sirac Şahverdiyev birinci yeri tutaraq qızıl medala, onun qardaşı Məftun isə ikinci yerdə gümüş medala layiq görülüb.Biri ”Tarix”, digəri ”Azərbaycan dili” fənni üzrə Diaqnostik qiymətləndirmədən isə hələlik 394 nəfər müəllimimiz keçib. Onlardan 140 nəfəri 40-60 arası bal toplayıb.

8 saylı tam orta məktəb qəsəbələrin giriş hissəsində-birinci qəsəbədə yerləşir. Sadə üsulla tikilmiş, lakin normal təlim-tərbiyə üçün hər cür şəraiti olan təhsil ocağıdır. Məktəbin direktoru Rauf Musayevin kabineti də başqa məktəblərdə gördüklərimizdən xeyli kiçik və darısqaldır. Buna baxmayaraq ilk söhbətimizdə bu darısqallıq yaddan çıxır. Məktəbin 34 nəfər müəlliminin hamısı diaqnostik qiymətləndirmədən müvəffəqiyyətlə keçib. Rauf müəllim deyir:

-İstedadlı, öz peşəsini ürəkdən sevən müəllimlərimizin səyi nəticəsində məktəbimizin yetirmələri yüksək balla ali məktəblərə daxil olurlar. Təkcə keçən il 13 nəfər məzun tələbə adına layiq görülmüşdür.Türkan Gülmalıyeva 609 balla İqtisad Universtitetinə, Könül İskəndərli 545 balla Milli Aviasiya Akademiyasına daxil olmuşdur. Müəllimlərin 50 faizi diaqnostik qiymətləndirmədə yüksək bal toplayıb. Mahmud müəllimin göstəricisi isə bizdə qürur hissi yaradır.

Mahmud müəllimlə tanış oluruq. Özünün Noutbukunu gətirir. Öz səhifəsini nümayiş etdirir. Həmin an hiss edirsən ki, Mahmud müəllim öz peşəsinə tam yaradıcılıqla yanaşır. Burada riyaziyyat fənninə aid təcrübə materialları ilə yanaşı, Mahmud müəllimin müxtəlif vaxtlarda obyektivə aldığı şəkillər əksini tapıb. Öz sinfinin şagirdləri ilə yağı düşmənin işğalından azad olunmuş Cocuq Mərcanlı kəndinə ekskursiya zamanı çəkilən şəkillər ilk baxışdan adama vətəpərvərlik ruhu aşılayır. Təvazökar insandır. Gördüyü işlərdən, təcrübəsindən qısaca danışır. Öyrənirik ki, 2 oğlu ali təhsil alıb. Həyat yoldaşı Nüşabə müəllimə də özü ilə birlikdə işləyir.

Məktəbdən ayrılanda müəllimlərin bir xahişini də bu yazıya əlavə edəcəyimi dedim. Təhsil ocağına verilən kompüter dəstləri köhnəldiyindən istifadəyə yaramır. Onları yeniləmək pedaqoji kollektivə ən yaxşı hədiyyə olar.

**Tofiq HÜSEYN,**
”Respublika” qəzeti,
14 may 2017

# SOLMAYAN GÜL, İTMƏYƏN ZƏHMƏT - «SOFULULAR» KİTABININ TƏQDİMATI

**Mayın 30-da Bakı şəhəri Yasamal rayonunda yerləşən Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Liseydə İdrak Rəhim oğlu Əliyevin «Sofulular» kitabının («Gənclik», 2017) təqdimat mərasimi oldu. Dövlət himninin səslənməsi ilə başlanan tədbir məktəbin informatika müəllimi, qabaqcıl təhsil işçisi Valid Məhərrəmovun «Sofulular» haqqında hazırladığı musiqili video-çarxla davam etdi. Tədbirin aparıcısı «Vedibasar» qəzetinin redaktoru, şairə-publisist Nəsibə İsrafilqızı giriş sözündə iştirakçıları salamlayıb, müəllifin çox böyük zəhmət bahasına araya-ərsəyə gətirdiyi kitab haqqında məlumat verdi:**

- Son iki əsr ərzində Qafqazda azərbaycanlılara qarşı keçirilmiş etnik təmizləmə və soyqırım nəticəsində ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmış xalqımız, onların əsrlər boyu yaşadıqları əzəli tarixi torpaqlarımız haqda bir-birindən dəyərli kitablar yazılmağa başladı. Bu gün təqdimatına toplaşdığımız İdrak Rəhimoğlunun «Sofulular» kitabı da bu sahədə əldə edilən uğurlardan hesab edilməlidir.

Bu məclisə Sofulu ulusundan olan ziyalıların yığışdığını qeyd edib bildirdi ki, bu gün burada onlar kitabla bağlı fikir söyləyəcəklər. Buna görə də mən sözü sizlərə verəcəyəm.

İlk söz məclisin ağsaqqalı Əlqəmə müəllimdən gəldi. O, Sofulularla bağlı belə bir kitabın işıq üzü görməsindən fərəh hissi keçirdiyini, soykökümüzlə bağlı mühüm bir əsərə imza atıldığını qeyd etdi:

- İdrak müəllimə el-oba adından çox sağ ol deyirəm ki, o, çox böyük əziyyətə qatlaşaraq, belə vacib, əhəmiyyətli bir işin öhdəsindən gələ bilmişdir.

Sonra söz AMEA-nın müxbir üzvü, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru Əlövsət Gülüş oğlu Quliyevə verildi. Əlövsət müəllim də öz növbəsində «Sofulular» kitabının yazılması yolunda İdrak Əliyevin cəfakeşlik göstərməsindən söz açaraq bildirdi ki, kitab sofulularla bağlı ilk böyük, fundamental tədqiqatdır ki, burada ölkəmizin müxtəlif guşələrinə səpələnmiş Sofulu camaatının haqqında çox mühüm informasiyalar özünə yer almışdır. Bütün sofuluların stolüstü kitabı kimi bir əsər yazıb ortaya çıxartdığına görə İdrak müəllimi təbrik edirəm.

Fizika-riyaziyyat elmləri doktoru, professor, BDU-nun mexanika-riyaziyyat fakültəsinin idarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrasının müdiri Məmməd Haqverdi oğlu Yaqubov çıxışına kövrək duyğularla başladı, özünün yazdığı şeirlərdən nümunə söylədi, fikrini İdrak Rəhimoğlunun «Sofulular» kitabının üstünə gətirərək qeyd etdi ki, Sofulu çox böyük bir tayfadı, nəsildi. Bir mövzuya girişmək həm məsuliyyət tələb edir, həm də adamdan böyük səbrlə hər cür cəfaya tablaşmaq istəyir. Bu cəhətdən İdrak müəllim belə bir müqəddəs və ağır missiyanı şərəflə yerinə yetirib, Sofuluların yayılma arealı, onları birləşdirən ümumi ortaq mənəvi dəyərlər, onların məşğul olduqları təsərrüfat həyatı və s. barədə kitabda dolğun məlumatları əks etdirə bilmişdir. Belə çətin işin öhdəsindən uğurla gəldiyinə görə ona «çox sağ ol», - deyirəm.




Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü, Rusiya Federasiyasının Böyük Pyotr və Vernadski adına orden və medallarına layiq görülmüş, Rusiya Federasiyası Təbiət Elmləri Akademiyasının əməkdar elm xadimi, professor, Bakı Slavyan Universitetinin prorektoru Turab Mürsəl oğlu Əhmədova söz verildi. Turab müəllim öz zəngin, məzmunlu çıxışında İdrak Rəhimoğlunun «Sofulular» kitabının tarixi-ictimai əhəmiyyətindən söz açaraq qeyd etdi ki, belə bir tarixi mövzuya müraciət etmək həm bir tarix müəllimi kimi, elə həm də öz nəslinə, soykökünə bağlı olan insan kimi onun öz içindən gələn bir duyğu idi. O, əslində bu kitabı yazmaqla çoxdan məşğul idi. Yəni belə irihəcmli bir kitabı, informasiyalarla dolu olan bir tədqiqat işini birdən-birə yazıb tamamlamaq da müşkül məsələ idi. Belə demək olarsa, İdrak müəllimin bu kitabı təkcə zehni yorğunluğun yox, həm də fiziki əziyyətin məhsulu kimi ortaya çıxmışdır. Bu isə dərindən düşündükdə, kitabın hansı böyük əziyyətlər bahasına başa gəldiyini deməyə bizə haqq verir. Zəhmətinin məhsulu mübarək olsun, İdrak müəllim. Gələcəkdə bundan da böyük əsərlərə imza atasan.

Əslən Ağdam rayonunun Sofulu kəndindən olan AYB-nin üzvü, Prezident təqaüdçüsu, «Mədəniyyətlərin inteqrasiyası» mərkəzinin sədri, şair-tərcüməçi, Qarabağ döyüşlərində zabit kimi qulluq edib «Şah İsmayıl Xətai» diplomuna layiq görülmüş Rəfail Alı oğlu Tağızadə çıxışında belə bir təklif səsləndirdi ki, «Sofulu» İctimai Birliyi adlı bir cəmiyyət yaradaq və bu cəmiyyət vasitəsilə müxtəlif bölgələrə səpələnmiş sofuluların mənəvi birliyini təşkil edək, bununla da bir-birimizin səsinə hay verə bilək, dərdinə-sərinə yetişə bilək.

Rəfail Tağızadə «Sofulular» kitabının müəllifi olan İdrak Rəhimoğlunun onu telefonda aradığını və bu yolla tanışlıq tapdıqlarını, bundan sonra belə bir kitabın yazılmasında çəkilən zəhməti də dilə gətirdi. Bildirdi ki, kitabda yalnız Zəngəzur, Sisyan, Cəbrayıl sofulularından yox, həmçinin Ağdaş, Gəncə, Quba, Şabran rayonlarına, eyni zamanda respublikamızın digər bölgələrinə səpələnmiş sofuluların da haqqında məlumatlar öz əksini tapıbdır ki, bütün bunlar da İdrak müəllimin bu kitaba böyük zəhmət və can-ürək yanğısı qoymağının nəticəsində araya-ərsəyə gəlmişdir.

AYB-nin və AJB-nin üzvü, yazıçı-publisist Xeybər Göyyallı çıxışında etiraf etdi ki, belə bir kitabı hələ çox-çox illər öncə o özü yazmaq istəyibmiş. Lakin işin ağırlığı, el-el, oba-oba gəzmək, müxtəlif bölgələrə səfər etmək və oralarda məskunlaşmış Sofulu camaatını tapıb-aramaq kimi çətinliklərə qatlaşmaq bizə nəsib olmadı. Görünür, İdrak müəllimin iradəsi, səbri bizimkindən daha güclü imiş ki, o, belə ağır, çətin, lakin eyni zamanda şərəfli olan bu işin öhdəsindən gəlməyi bacardı və gördüyümüz kimi, həcmi də çox geniş olan bir kitab yazılıb tamamlandı ki, biz bu gün həmin «Sofulular» kitabının işığına yığışa bilmişik.

Xeybər Göyyallı müəllifin bu ağır əməyini alqışladı və belə bir uğura görə onu təbrik etdi.

Təqdimat mərasimində Qərbi Azərbaycanın Zəngibasar mahalından olan ağsaqqal ziyalı Adil müəllim, mərhum Sirac həkimin nəvəsi Vahid müəllim, kimya üzrə fəlsəfə doktoru Firudin Quliyev, Mirzə Ənsər, mərhum tarixçi alim, professor Yusif Yusifovun qızı Nailə xanım Yusifova, BDU-nun professoru Hacı Əyyub Əzizov, BDU-nun baş müəllimi, dosent Sona Çərkəz, texnika elmləri namizədi, SDU-nun əməkdaşı Rəhilə Abdullayeva, Qida Sənaye Kollecinin müəllimləri Leyla xanım, Elmar müəllim və başqaları çıxışlarında İdrak Rəhimoğlunun «Sofulular» kitabı barədə ürək sözlərini söylədilər, sofuluların stolüstü kitabına imza atan müəllifə minnətdarlıq hisslərini ifadə etdilər.

Belə sanballı bir kitab yazdığına görə iştirakçıların alqış sədaları altında İdrak Rəhimoğluna AzərKİVİHİ-nin qərarı ilə «Qızıl qələm» ali media mükafatı təqdim olundu. Sonda İ.Rəhimoğlu təqdimat mərasiminə toplaşanlara zəhmət çəkib gəldiklərinə görə və səslən dirdikləri fikir və təkliflərinə görə təşəkkür edib bildirdi ki, Sofulular elə bir geniş mövzudur ki, gələcəkdə bu istiqamətdə tədqiqatını davam etdirməklə kitabın daha təkmil nəşrini də ortaya qoyacaqdır.

İllərlə biri-birilərini görməyən tədbir iştirakçıları xatirə şəkilləri çəkdirdilər.

P.S.Təqdimat mərasimində yerlərdən işarə edirdilər ki, mən də çıxış edim. Hətta tədbirdən əvvəl mənə Vaqif Qabiloğlu da zəng edib çıxış etməyimi məsləhət bilmişdi. Ancaq nə edim ki, uşaqlıq illərimdən yaxamdan yapışıb əl çəkməyən utancaqlıq duyğusu yenə mənə hakim kəsilmişdi. Çəkindim yenə də. Belə düşündüm ki, çıxış edəcəyim zaman ərzində adamların vaxtını almaq ayıbdır. Amma ürəyim dolu idi... Elə bir-iki kəlmə burada yazmaqla həmin tədbirdən dolmuş ürəyimi azacıq da olsa boşaltmaq istədim.

Xeybər Göyyallının özünə dediyi sözlər eynilə mənə də aiddir. Mən «Xudafərin» qəzetində hələ baş redaktor müavini olduğum dövrlərdə Sofulularla bağlı elmi-publisistik üslubda məqalələr yazıb çap etdirmişdim. Düzü, fikrimə yığmışdım ki, mövzunu bu cür genişləndirib, gələcəkdə bir kitab halına gətirəcəyəm. Necə oldusa Xeybər Göyyallı deyəsən bu məqalənin birini, ya ikisini oxuyubmuş, bir dəfə rastlaşanda mənə dedi ki, bu səpkidə yazıların yığ ver mənə, sofululardan yazacağım kitabda sənin fikirlərin kimi sitatlar gətirib istifadə edəcəyəm. «Yaxşı», - deyib razılaşdım. Beləcə, Xeybər Göyyallının qabağına keçməklə kitab yazmaq duyğumdan vaz keçdim, fikirləşdim ki, artıq bu, Xeybər müəllimin heysiyyatına toxunar. Çünki o, məni qabaqlamışdı sözdə, mən ürəyimdəki sofulularla bağlı kitab yazmaq istəyimi ona bildirməkdə gecikdim. O da ürəyimi oxumurdu ki. Nə biləydi ki, mənim də belə bir məqsədim var.

Sonralar isə İdrak müəllim məndən ona Sofulularla bağlı məlumat verməyimi istədi ki, bəs bu mövzuda kitab yazacaq. Mən ondan da özümün belə bir kitab yazmaq istəyimi gizlətdim ki, yaxşı deyil, etikadan kənar olar mənim onun qabağına keçib, yazmağım.

- Qoy yazsın, - dedim ürəyimdə. Xeyir-dua verdim. Amma Xeybər müəllimdən fərqli olaraq, İdrak Rəhimoğlu sözünün üstündə durdu, dediyi kimi, «Sofulular» kitabını yazıb başa çatdırdı və onun bu uğuruna bir qohumu kimi də, eloğlu kimi də, Sofulu kimi də çox sevindim.

Bəli, İdrak Əliyev çox böyük zəhmətlərə qatlaşıb bu kitabı ortaya qoydu. Zehni əməklə fiziki əməyin vəhdətindən yaranan «Sofulular» kitabı bu sahədə ilk böyük təşəbbüs kimi təqdirəlayiqdir. Sofulular dediyimiz bu elin-ulusun hamısı öz yerindən-yurdundan didərgin olub, hərəsi bir tərəfdə yaşayır. Və İdrak Rəhimoğlu dərviş kimi əlinə dəmir əsa alıb, ayağına dəmir çarıq geyib bu məmləkətin hər tərəfini gəzib-dolaşmaqla cəlayi-vətən olmuş sofululardan minbir ənvai-müsibətlə soraq tutub, əhvallaşıb, gərgin zəhmət hesabına istəyini (təkcə öz istəyini yox, mənim də, Xeybər Göyyallının da və eləcə də bütün Sofuluların da) gerçəkləşdirə bildi. Çəkilən zəhmət hədər getmədi. Gül açan əməyin, bəhrə verən zəhmətin olan «Sofulular» kitabın mübarək olsun, İdrak müəllim! Heç zaman solmayan gül, heç vaxt itməyən zəhmət mücəssəməsidir «Sofulular» kitabı!

***Şakir ALBALIYEV***
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# "Könlüm keçir Qarabağdan" inşa müsabiqəsi

Mayın 20-də Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində Milli İrsi Mədəni Tarixi Araşdırma (MİMTA) Fondunun dəstəyi ilə " Füyuzat" dərgisinin 110 illiyi münasibətilə məktəblilər arasında keçirilən "Könlüm keçir Qarabağdan" adlı inşa yazı müsabiqəsinin yekununa həsr olunmuş mükafatlandırılma mərasimi Dövlət Himnimizin səsləndirilməsi ilə başlandı.

Çıxış üçün ilk sözün aparıcı tərəfindən MİMTA Fondunun İcraçı direktoru Pərviz Əmirova verildiyi elan olundu. Tədbir iştirakçılarını salamlayan Pərviz müəllim Fondun öz fəaliyyətinə Milli Mətbuatımızın incisi sayılan "Füyuzat" jurnalının bərpası ilə başladığını qeyd edərək bildirdi ki, 1906-1907-ci ildə Əli bəy Hüseynzadənin redaktorluğu ilə nəşr olunmuş "Füyuzat"dan 100 il sonra - 2007-ci ildə MİMTA Fondunun təsisçiliyi ilə professor Teymur Əhmədovun baş redaktorluğu ilə 32 nömrəsi çıxmış klassik "Füyuzat"ın davamı kimi yeni Füyuzat 33-cü nömrədən nəşr edilməyə başlamışdır.

Daha sonra P.Əmirov Ağdam rayon 33 saylı orta məktəb, Cəbrayıl rayon Akademik Mehdi Mehdizadə adına şəhər tam orta məktəbi, Füzuli rayon 50 saylı tam orta məktəbi və Xocavənd rayonu Nərimanlı kənd tam orta məktəblərinin şagirdləri arasında keçirilmiş inşa yazı müsabiqəsinə diqqəti yönəldib, bildirdi ki, münsiflər heyəti dəyərləndirmə aparmış və müvafiq yerləri tutanlara mükafat təyin olunmuşdur.

Daha sonra Bəxtiyar Vahabzadənin "Vətən" şeirini ifa etmək üçün Ağdam rayon 33 saylı orta məktəbin 10-cu sinif şagirdi Aygün İmanova səhnəyə dəvət olundu. Ardınca Səma İmanova, Cəbrayıl rayon tam orta məktəbinin 10-cu sinif şagirdi Nigar İskəndərova, 11-ci sinif şagirdi Nərmin Abbasova, Füzuli rayonundan olan məktəbli Günel, Xocavənd rayonundan olan məktəbli 4-cü sinif şagirdi Amin və başqaları "Füyuzat"ın səhifələrində işıq üzü görmüş yazıları yüksək qiraət üslubu ilə oxudular.




Tədbirdə iştirak edən Millət vəkili Qənirə xanım Paşayeva çıxışında Ə.Hüseynzadənin gəncliyə çağırışı var: "Bizə fədailər lazımdır" fikrinə isnad edərək qeyd etdi ki, fədailər cəmiyyətin, millətin marağını öz şəxsi mənafelərindən üstün tutanlardır. Fədailəri daha çox anlamaq lazımdır, sadəcə anmaq yox. Çünki onlar vətən var olduqca anılıb yaşayacaqlar.

Daha sonra millət vəkili: - Duyğunuza, düşüncənizə diqqət edin, çünki onlar əməllərinizə çevrilə bilər, əməllərinizə diqqət edin, çünki taleyinizə çevrilə bilər, - deyərək bildirdi ki, bu gün bizim üçün dünyanın ən böyük hədiyyəsi torpaqlarımızı düşmənlərdən azad edib, özümüzə qaytarmaqdır. Vətənin şimalı-cənubu, şərqi-qərbi olmur, vətən elə vətəndir. Bu gün biz hamımız Qarabağlı ola bilməliyik.

Qənirə xanım Cocuq Mərcanlıya səfərinin təfərrüatlarından da danışıb, dedi ki, vətən əməl də sevilir, sözdə yox. Vətənin tarixinə sahib olmaq bizə güc verir. Bu inşa müsabiqəsinin keçirilməsi də vətənimizə, tariximizə məktəblilərdə böyük sevgi hissi yaratmaq istəyindən qaynaqlanır. Gün gələn ki, tezliklə Qarabağ işğaldan azad olsun və gedib oralarda bir daha belə tədbirlər keçirdək.

Aparıcı mükafatlandırılmanın 2 nominasiyada - 5-7 və 8-10-cu siniflər arasında aparıldığını elan etdi. 5-7-ci siniflər arasında 3-cü yerə Cəbrayıl rayonundan olan 7-ci sinif şagirdi Savalan Quliyevlə Ağdam məktəblisi 7-ci sinif şagirdi Nərgiz Mirzəyeva, 2-ci yerə Xocavənd məktəblisi Fidan Bayramova və Füzuli məktəblisi Nərmin Ocaqverdiyeva, 1-ci yerə isə Füzuli rayonundan olan məktəbli Kamil Hacıyev layiq görülərək mükafatlandırıldılar.

8-10-cu siniflər arasında isə 3-cü yerə Ağdam rayon məktəblisi 8-ci sinif şagirdi Razim Qarayevlə Xocavənd məktəblisi Nərgiz Orucova, 2-ci yerə Xocavənd məktəbindən Nərmin Abbasova və Nişanə Məmmədova, 1-ci yerə isə 10-cu sinif şagirdi Səma İmanova layiq görülərək mükafatlandırıldılar.

Tədbirdə BDU-nun jurnalistika nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, professor Cahangir Məmmədli, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, "İşıq-Qadın" jurnalının baş redaktor müavini Şəfəq Nasir, Azərbaycan radiosu "Ədəbiyyat və incəsənət" redaksiyasının Baş redaktoru, Əməkdar incəsənət xadimi Şəfəq Sultan Əlixanlı, filologiya üzrə fəlsəfə doktoru Qərənfil Dünyaminqızı, ADMİU-nun dosenti Mübariz Süleymanlı, Cəbrayıl RİHB-nın müavini Fəridə İbayeva, Ağdam RTŞ-nin müdiri Mətanət Misirxanova və başqaları müsabiqənin qaliblərinə hədiyyə və mükafatları təqdim edib, nitq söylədilər.

Məktəblilərin ifasında "Turacı" rəqsi, "Qarabağım, qara bəxtim", Qarabağ şikəstəsi, "Sarı gəlin" mahnıları, Ruhani saz havası səsləndirildi.

Cəbrayıl rayon Akademik M.Mehdizadə adına şəhər tam orta məktəbin direktoru Şəlalə Qasım qızı Qasımlı, Füzuli rayon 50 saylı tam orta məktəbin direktoru Günel Mais qızı Kazımova və digər məktəb direktorları ürək sözlərini bölüşdülər.

Tədbirdə Cəbrayıl RİHB-nın humanitar məsələlər üzrə müavini Fəridə xanım İbayeva, Cəbrayıl rayon təhsil şöbəsinin müdir müavini Aydın Bəyişov, RTŞ-nin inspektoru Əli Əliyev də iştirak etdilər.

**Şakir Albalıyev**

# Anılmaq da yaşamaqdı...

Mayın 19-da şəhid Hafiz Fətəliyevin adını daşıyan Şahvəlli kənd tam orta məktəbində uzun müddət məktəbə rəhbərlik etmiş yazıçı-puplisist, şair Sahib Əhməd oğlu Abdullayevin xatirəsinə həsr olunmuş anım tədbiri oldu.

Məktəbin müəllimi Fatma Abbasovanın təşkilatçılığı ilə və istedadlı şagirdi Süsəngül Hakimqızının aparıcılığı ilə keçən anım tədbirində sayılan-seçilən qələm adamları iştirak edirdilər. Azərbaycan Yazıçılar Birliyindən şair Dayandur Sevgin, Özbəkistan Respublikasından tərcüməçi şairə Dilbər Heydərova, "Kredo" qəzetinin baş redaktoru yazıçı-şair Əlirza Xələfli, şair və yazıçılardan Fərzalı Abbasəlioğlu, Malik Əhmədoğlu, Firudin Şahbuzlu, Güllü Eldar, saz ifaçısı, gənc şairə Ayşə Səyyadqızı, Mətanət Ulu Şirvanlı, Əzizə Ağahüseynqızı, Səmayə Güləliqızı və başqalarının toplaşdığı ədəbi məclisdə Sahib Abdullayev dünyası məhzun duyğularla yad edildi.

Tədbirin aparıcısı Süsəngül Hakimqızı müəllimi və ustadı olmuş Sahib Abdullayevlə bağlı kövrək nisgilli xatirələrini dilə gətirdikcə özündən ixtiyarsız göz yaşlarını saxlaya bilmir, bu həzin duyğular tədbir iştirakçılarının məhzunedici tərzdə hamısına sirayət edərdi. Söz sevimli el şairi Fərzalı Abbasəlioğluna verildi. Sahib müəllimlə bağlı xatirələrini kövrələ-kövrələ dilə gətirən F. Abbasəlioğlu bir qəfil telefonunun səs yaddaşına yazmış olduğu Sahib müəllimin ona həsr etdiyi şeirini öz səsində iştirakçılara çatdırdı. Bu hal doğrudan-doğruya tədbir iştirakçılarında xüsusi bir həzin ovqat doğurdu.

Daha sonra Sahib müəllimə həsr etdiyi şeirini oxuyan Fərzalı müəllim axırda: "ruhun şad olsun, səni də, məni də dinlədik, dostlarımızı da dinləyəcəyik"- deyərək çıxışını tamamladı.

AYB-nin əməkdaşı şair Dayandur Sevgin xatirələrini dilə gətirdikdən sonra söz məktəblilərə verildi. Sahib müəllimin dünya ilə ilgili, insan ömrü ilə bağlı nostalji ovqatda yazmış olduğu şeirlərini ifa edən şagirdləri də göz yaşlarını saxlamağa hakim ola bilmədilər.

Şair-publisist Ə. Xələfli çıxışa başlayarkən iştirakçılara-müəllim və şagird kollektivinə bir qədər səbir göstərməyi, göz yaşlarının aram olmasını tövsiyə etdi. Bildirdi ki, bu bir ədəbi tədbirdir ki, Sahib müəllimə həsr olunub, burada ağlamaq lazım deyil, ağlamayaq ki, qoy Sahib müəllimin də ruhu şad olsun.

Ə. Xələfli daha sonra Sahib müəllimin " Xudafərin ", " Katarsis dünyası" qəzetlərindəki fəaliyyətindən danışdı. M. Aslan, Telli Pənahqızı, Əzizə Cəfərzadə kimi yazıçı və şairlərlə görüşlərini xatırladı, onun " Yaddaş karvanı" essesinin "Kredo"da çap olunduqdan sonra yazıçı Əzizə xanımın onu oxuyub, " bu, hekayədir, povestdir, nədirsə, bilmirəm, amma canımı alan bir yazıdır", - deyə münasibət bildirdiyini dedi. Çıxışının sonunda Əlirza müəllim "Xudafərin" qəzetində çap olunmuş Sahib müəllimə həsr etdiyi " Təzə yara göynəmi"adlı şeirini oxudu.



Özbəkistandan gəlmiş şairə Dilbər Heydərova, şairə Güllü Eldar, Sahib müəllimin dostları Əbdülhəşim Tarverdiyev, Nazim Behbudov, aktyor Həsən Həsənov, Mətanət Ulu Şirvanlı, Səmayə Güləliqızı və başqaları Sahib müəllimlə bağlı dəyərli fikirlər səsləndirib, şeirlər söylədilər.

Şairə Əzizə Ağahüseynqızı çıxışında Cəbrayıl torpağında bitən və qədimdə qız-gəlinlərin ətir kimi istifadə edib, paltarlarının arasına qoyub, sandıqda, boğçada və s. yerdə saxladıqları boy çiçəyindən söz açdı, Sahib müəllimlə bağlı həzin duyğularını dilə gətirib bildirdi ki, Allah-təala dünyanın bütün gözəlliklərini Sahib müəllimin qəlbinə sanki həvə ilə toxumuşdu, o, belə gözəl bir insan idi.... Məktəblilərdən Azadə Oruclu, Aysel Alışova, Pərviz Sultanlı, Mehriban Verdiyeva, Ləman Oruclu, Ayşə Hüseynova, Günay Fərhadova, Günel Hümbətova, Ofelya Tarverdiyeva və başqaları Sahib müəllimin şeirlərindən nümunələr ifa etdilər.

Mahir saz ifaçısı Aişə Səyyadqızı ruhani havası üstə sazını dilləndirdikdən sonra tədbirin təşkilatçısı olan Fatma müəllimə son sözü söyləməyin mənə həvalə olunduğunu elan etdi.

Onsuz da həyəcan içində idim. Bu cür hüzn dolu məclisdə son sözü demək də həyəcan doğurucu hal idi... Bu məqamda bir xatırlatma da verim ki, Saatlı rayonunun təşkil olunmasının 60 illik yubileyi münasibətilə düzənlənən tədbirdə açılış "Saatlı" mahnısı ilə başlamışdı. Həmin tədbirin təxminən ortasında digər bir "Saatlı"



mahnısı da səsləndirildi. Çox həyəcanlandım ki, bəs bizim "Saatlı" mahnımız niyə ifa olunmadı? Məclis yekunlaşmaq üzrə idi ki, bir də eşitdim ki, aparıcının dilindən elan olunur ki, tədbirimiz "Saatlı" mahnısı ilə başladığı kimi, "Saatlı" mahnısı ilə davam etdiyi kimi, tədbirimiz yenə də bəstəkar Rəşid Şəfəqin Şakir Albalıyevin sözlərinə bəstələdiyi "Saatlım" mahnısı ilə yekunlaşır. Beləcə, onda yubiley tədbirinin sonuna qədər həyəcanlı anlar yaşamışdım. İndi Sahib Abdullayevin bu anım tədbirində də beləcə əvvəldən axıra qədər həyəcanlı anlar yaşadım.

Mən "Xudafərin" qəzetində Sahib müəllimin xatirəsi işığında qələmə aldığım "Hamının olan bu dünyada kimlər qalır?" başlıqlı yazıma işarə ilə bildirdim ki, bu ritorik sualı qoyduğum sərlövhədə birinci halda demək istəmişəm ki, hamının olan bu dünyada heç kim cismani baxımdan bu dünyanı tutub qalmır. İkinci halda isə demək istəmişəm ki, hamının olan bu dünyada hər adam yox-təfəkkür sahibləri mənən qalıb yaşayır. O kəslərdən biri də bu gün ruhuna ehtiram göstərib yığışdığımız Sahib müəllimdir. Əlirza müəllim çıxışında məsləhət verdi ki, göz yaşı axıtmayın. Bir tərəfə baxanda düz deyir, çünki Sahib müəllim mənən ölməyib yaşayır, bu mənada yaşayan adama göz yaşı töküb ağlamazlar. İkinci tərəfdən isə bu ağlamaq o deməkdir ki, Sahib müəllim bir müəllif kimi öz əsərləri, şeirləri ilə sizləri - hətta həyatın nə demək olduğunu tamlığı ilə anlaya bilməyən siz uşaqları bu qədər dərəcədə kövrəldib-təsirləndirə bilirsə, ağladırsa, demək o, bir yazar kimi qəlblərə, könüllərə təsiredici gücdə olan əsərlər yazıb-yaradıb və bu, həm də o deməkdir ki, Sahib müəllim bir qələm əhli kimi özündən sonra iz qoyub yaşayır.

Bundan başqa, Sahib Abdullayev bir müəllim kimi, bir məktəb direktoru kimi müəllim yoldaşlarının və şagirdlərinin yaddaşında,



bir qələm adamı kimi bura toplaşan yaradıcı qələm adamlarının xatirələrində yurd salıb yaşayır. Eyni zamanda bu günkü anım tədbirinə bizdən məsafəcə uzaq olan, lakin bizə doğma olan qardaş Özbəkistan Respublikasından təşrif gətirmiş Özbək şairə Dilbər Heydərovanın gəlişi isə onu deməyə əsas verir ki, Sahib müəllimin adısorağı ölkəmizdən kənarlara da gedib yayılmışdır və bu da yaşarılığın bir mücəssəməsidir. Sahib müəllim sadaladığım bu kimi keyfiyyətlərə görə bu dünyada mənəvi yaşam haqqı qazandığı halda, o öz ailə üzvlərinin, övladlarının simasında və nəvəsi olan adaşı Sahibin timsalında da cismani şəkildə özünə yaşam haqqı qazanan xoşbəxt insan idi...

P.S. Anım tədbirində Mürvətə söz vermək istəsələr də, danışmadı. Bəlkə də, qəhərdən-çəkdiyi acıdan özünü toparlayıb danışa bilmədi. Çünki ağır itki-ata nisgili onu varından yox etmişdi onsuz da... Amma mənə elə gəlir ki, həmin anım tədbirinin davamı kimi iki gün sonra, mayın 21-də bazar günü qırx mərasimində Mürvət "danışdı". Baş redaktoru olduğunuz "Katarsis dünyası" qəzetinin sizdən sonra sizə həsr olunmuş xüsusi buraxılışın səhifələrindən oxuduğumuz sözlərə "danışırdı" Mürvət: "Mən sənin vida günündə bizim həyətə əllərində çələnglə gələn şagirdlərini gördükdə qürur hissi yaşadım, ata! Bəzən səni qınayırdım ki, dəyməz, ay ata, indiki əksər gəncliyə, həm əsəblərini korlayırlar, həm də ömrünü "yeyirlər". İndiki əksər gənclik təhsil, intizam, müəllimin şagirdlə əsl mənada dost olmağını istəmir. Amma gördüm ki, hardasa yanılmışam. Sən ömrünü hədər yaşamamısan. Bura- bizə gələn şagirdlərin səmimiyyətlə axıtdıqları göz yaşları hər qaranlıq sualın işıqlı cavabı idi. Sən fərqli idin və sənin vida mərasimin də elə fərqli olmalı idi də". Məncə, bu cümlələr oğlun Mürvətin həm məktəbdəki anım tədbirinə, həm sənin vida, dəfn və yas mərasimlərinə gələnlərə nisbətdə dilcavabı deyəcəyi münasibətin ifadəsi idi...

Mürvətin sizə yazdığı həmin elegiyadan bir cümləni də sitat gətirməklə yazıma son vermək istəyirəm: "Keçənləri təkrar xatırlamaq qədər bəlkə də, insanın qəlbini sızıldadan ikinci bir fövqəl hadisə yoxdu dünyada"...

Beləcə, məktəbdə keçirilən ürəkləri sızıldadan bu anım tədbirinizdə sizinlə bağlı xatirələr vərəqləndi, cismən olmasanız da, mənən-ruhən bizimlə bir yerdə olduğunuz dilə gətirildi.

Özündən sonra anılmaq da yaşamaqdı, ömürdən sonra yaşanan həyatdı...

**Şakir Əlifoğlu**

# SU QƏDƏR ÖMRÜNÜZ OLSUN

Yaradılışdan bəri su həyatın əsasında durub,onun aparıcı hissəsini daşıyıb. O yaşam qaynağımız olaraq,bütün canlıların əsasını təşkil edir.Su ən universal həlledici olduğu üçün onda müxtəlif zərrəciklərin,ayrı-ayrı həyat elementlərinin həll olması və qarışması baş verir. Onun sadə,ancaq özünəməxsus molekul quruluşu (H2O) suyun bir çox keyfiyyətlərə sahib olmasını deməyimizə əsas verir.Tərkibinin təkcə 2 hidrogen və 1oksigen atomundan ibarət olmasına baxmayaraq,tədqiqatlar göstərir ki,o həm də informasiya daşıyıcısıdır.Mütəxəssislər bildirirlər ki, suya maye halında oxunan nəğmələr,dualar,deyilən yaxşı və pis ifadələr onun buz halına keçməsi zamanı kristal qəfəsinin quruluşunda yaxşı və pis formada öz əksini tapır.Araşdırmalar nəticəsində aydın olub ki,su "şüurlu bir substansiya"olaraq insanın fikirlərini, duyğularını, sözlərini dərk etməyə,mühafizə edib saxlamağa,buna da müvafiq olaraq surətini çıxarmağa qadirdir. Hələ 1950-ci illərdə Yapon alimi və həkimi doktor Emotonun suyla bağlı işləri çox olmuşdur. Məsələn: O, Quran ayələri yazılmış audiokasetləri suya yaxın bir yerdə səsləndirdikdə kristallar öz quruluşunu dəyişmiş,daha xoşagələn, incədüzümlü bir formaya-simvollara çevrilmişdir. Dahi N.Gəncəvinin "İsgəndərnamə" poemasında da belə bir səhnə var ki, İsgəndərin sirrini səhradakı quyuya danışan köməkçisi sonradan məlumatın quyuya(suya) salınmış qamış vasitəsilə başqalarına ötürülməsini anlamışdır.Folklor nümunələrimiz də suyla bağlı fikirlərlə zəngindir. "Suyu olmayan ev abad olmaz", "Gözüm səndən su içmir", "Su qədər ömrün olsun" bu kimi deyimlərin olması suyun keçmişlərdən bu günə həyati əsasları olduğunu sübut edir.Su paklıq,təmizlik mənbəyidir.Qədim türklərdə suyun müqəddəslik rəmzi hesab olunması,mifoloji düşüncədə ilkin yaradılış elementi kimi dəyərləndirilməsi onun yəqin ki,bu xüsusiyyətləriylə bağlıdır.Milli ənənələrimizdə sudan məişətdə inanclı şəkildə istifadə imkanları çox genişdir. Götürək ki, gedənin arxasınca su atmaq,görülən yuxunu suya danışmaq,suya and içmək,axar suyu çirkləndirməmək,qorxan insana su vermək və s.suyun həyatımızda nə qədər vacib amil olduğunu bir daha sübut edir.Yazın gəlişini qeyd etdiyimiz ilk çərşənbə də su çərşənbəsidir.Bu çərşənbədə insanların sudan fərqli şəkildə faydalanması ona olan münasibətin bir daha bariz nümunələridir. Əvvəllər bunların tam elmi əsasları bilinməsə də, indi mayamızın əsasını su təşkil etdiyini bilirik, çünki bədənimizin 80 faizi ondan ibarətdir. Orqanizm sanki su ilə işləyən bir təsərrüfat sahəsidir desək yanılmarıq. İnsanın hər hərəkətinə su sərf olunur. Ən sadə gözqırpımında belə lazım olaraq göz almasının nəmliyini qoruyur.Hər nəfəs verdikdə orqanizmin su ehtiyatı azalır. Təfəkkürümüz, beynimizin koordinasiya fəaliyyəti,dəri, əzələlər, daxili orqanlar hamısı su olmadan işləyə bilməz.Orqanizmin əsas struktur vahidi olan hüceyrə öz suyunu itirdikdə apaptoz deyilən bir vəziyyətə düşərək məhv olur.

Bədənimizdə lazımi qədər suyun olması sağlam həyat üçün əsas amildir.İnsan su ilə təmizlənir, su insan bədənində gedən kimyəvi reaksiyalarda iştirak edir.Toxumalara əsas qida maddələrini daşıyaraq, ordan da toksinləri çıxarır. Bədən temperaturunun, arterial təzyiqin,çəkinin sabit saxlanmasında mühüm rol oynayır.Həzmə kömək edir,maddələr mübadiləsini normallaşdırır. Su dərimizin nəm saxlanmasına kömək edərək erkən qocalmanın qarşısını alır.Eyni zamanda su çoxlu mikroelementlərlə zəngindir.Gümrah və sağlam qalmaqdan ötrü çoxlu su içmək lazımdır.Hər kəs öz bədən kütləsinə görə sutka ərzində təxminən 2-3l su tükətməlidir.Bu həyatı sağlam,gözəl əhval-ruhiyyədə və uzunömürlü yaşamaq istəyirsinizsə, sizə lazım olan qədər su için.Necə deyərlər su için ki,su qədər ömrünüz və su kimi aydın həyatınız olsun

**Fərqanə Hidayət qızı Səfərli,**
**həkim-terapevt**

Azər Əhmədov (Amerika)

# "Bəxtiyar Azərbaycan"

## (Hekayə gerçək hadisələr əsasında yazılıb)

*"Bir insanın ki, qəlbi qırıq,könlü sınıq, körpüsü uçuq ola..."*

**Mehman Hüseynov**

*Hekayənin qəhrəmanı Karlo obrazı Cəbrayıl rayonunun Tinli kəndindən olan Qaytaran Eyvazlının prototipidir. Hekayədən anlaşılır ki, Böyük Vətən müharibəsində almanlara əsir düşən Qaytaran (Karlo) bir İtalyan qızı ilə ailə qurub, əvvəl İtalyada, sonra Amerikada yaşayıblar. Ehtiyatda olan döyüşçü-zabit, yazıçı Mehman Hüseynov mənə belə bir məlumat çatdırdı ki, Qasım dayısının qızı Xələfli kəndindən olan bioloq-alim Sahib Əhmədovun oğlu Azərlə ailə həyatı qurub və hazırda Amerikada yaşayırlar. Onlar dəfələrlə Qaytaran Eyvazlı ilə görüşüblər. Aşağıdakı hekayə də görüşdən alınan təəssüratların nəticəsi kimi araya-ərsəyə gəlib. Həyat reallıqlarını mütəəssiredici bir ruhda əks etdirən hekayənin oxucularımızda böyük maraq yaradacağına inanırıq.*

**Şakir Əlifoğlu**

Karlo öldü. "Fakirsənsə, ölümün daha böyük" demiş şair. Karlo fakir deyildi. Amma böyük bir ölümlə ölmək istəyirdi. Milyonların onun ölümündən xəbər tutmasını istəyirdi. Sevdiyi, uğrunda vuruşduğu milyonların. Vuruşub məğlub olmuşdu.

Məğlubsansa ölümün daha böyük!

Xəbəri telefonda Nelda çatdırmışdı qardaşı uşaqlarına. Sonra xəbər dunyanı dolaşıb axırda gəlib mənə çatanda sakit qarşılamışdım - Karlo məni öz ölümünə çoxdan hazırlamışdı. Mətbəxlərində Neldayla mübahisə edirdilər, - birinci mən öləcəm, mənim vəziyyətim səninkindən pisdir, - yox, mən səndən tez öləcəm. Axırda Nelda bir əlini masanın küncünə dirəyib ayağa durmuşdu, donqarlı belini azca dikəldib şəhadət barmağını önündəki havada irəli itələyərək "vado io!" demişdi, "basta!" Bitdi yəni söhbət, finito!

- Əmi, bu nə yaxşı nərdtaxtadır, üstündə də Nərimanovun şəklin çəkiblər.

- Eşşəyin sıpası, Nərimanov nədir, görmürsən Üzeyir Hacibəyovun şəklidir.

- Yox, ay əmi, Nərimanova oxşayır.

Mən də söhbətə qoşulub arvadıma tərəf dururam.

- Nərimanova çox oxşayır.

- Ə, mən Nərimanovun şəklin heç evimdə saxlayaram? Alçaq, apardı bağladı bizi ruslara! Sən nə təhər müəllimsən ki, Üzeyiri tanımırsan.

- Nə bilim, ona da oxşayır, buna da - mızıldayıram.

- Götür bir nərd ataq.

- Oynaya bilmirəm.

- Bəs nə bilirsən, elə müəllimliyi?

- Ayrı oyunları bilirəm.

- Heç kişi sənəti deyil haa bu müəllimlik. Kişi aşçı olar, sənətkar olar. Mənim qonşularım da müəllimdirlər, heç zadın karı deyillər.

- Mən təkcə müəllim deyiləm, həm də elmi işlə məşğul oluram.

- Nə işlə dedin?

- Tədqiqat işi daa. Oxuyub öyrənirəm həm də.

- Oxu, oxu, amma hər oxuyan da Molla Pənah olmur, onu da biləsən gərək.

- Onu da bilirəm.

Brooklyn'dəki evlərini satıb Padovaya köçəndə artıq həyatla vidalaşmışdı. Uzun illər idi Padovada ev tikdirirdilər, amma bir dəfə də olsun bu haqda danışmazdı. Ev nədir, ən sonda heç nə haqda danışmağa sözü qalmamışdı, deyəcəyi nə söz vardısa deyib qurtarmışdı. Yaşamağa yox, ölməyə gedirdi Padovaya.

Bu qürbət bilirsənmi nədir, bala, bu qürbət bir kəndirdir. Ucundan tutdunsa, buraxmırsan, dananın quyruğundan tutub buraxmayan uşaq görübsənmi, oylə. Sonra kəndiri əlinə dolayıb bir az da möhkəm yapışırsan ondan, ömrün boyu tuta-tuta, dolaya-dolaya gəlirsən, ömrünün axırında görürsən ki, kəndirin o ucunda bir ilgək varmış. Ilgək axırda gəlib keçir boğazına. Özünü asıb öldürürsən. Bax, qürbət belə şeydir. Mənim dədəm öldü, görmədim, nənəm öldü, görmədim, - gözü yaşarır, - xalam öldü, görmədim, özü də nətəhər istəkli xalam, həmin o böyük xalamı deyirəm, sənin dədənin nənəsini, - səsi titrəyir, - bacım öldü, görmədim, - səsi xırıldayır, - qardaşım öldü - göz yaşı boğur onu burda, yenə nəsə deyirsə də eşidilmir.

La strada e aperta! - Nelda səsini qaldırmışdı ona bir dəfə. Bakıdan pensiyamı ala bilsəydim, bala, gedib oturardım orda. Bilirik ki, pensiya bəhanədir, gedib Bakıda yaşamaqdan, oralara öyrəşə bilməməkdən qorxur. Həm də Nelda getməz, onu necə atıb getsin? Atmaz onu. Elecə Bakıya getməkdən danışıb Neldaya minnət qoyur. La strada e aperta! - bu dəfə Neldanı da göz yaşı boğur.

Biz o vaxt dörd azərbaycanlı əsgər dörd italyan qızla evləndik. Mən müharibədən sonra Isveçrədəydim. Bizi bir fabrikada işlədirdilər. Bu da orda işləyirdi. Bir dəfə orda bir azərbaycanlı əsgər vardı, yaşda məndən böyük idi, dedim ki, boylə-boylə, bir qız var, gəldi mənə bir söz atdı, bu sözün mənası nədir? "Göyçək qızdırmı?" soruşdu. Pis deyil, dedim. "Onda ondan möhkəm yapış!"

Saçlarına vurulmuşdum - Nelda deyir. Gülürük. Sii, ma capelli erano bellissimi.

Bir dəfə qardaşım zəng elədi mənə, o vaxtlar da ordan bura zəng eləmək zarafat məsələ deyildi haa. "Oğlum olub, adını nə qoyum?" soruşdu. Bəxtiyar qoy, dedim. Üstündən on il keçəndən sonra gördüm genə zəng eləyib ki, bir oğlum da olub. Dedim adını Azər qoy. Bir də üstündən düz on il keçəndən sonra zəng elədi ki, üçüncü oğlum oldu. Dedim bunun da adını qoy Baycan. Oldu Bəxtiyar-Azər-Baycan! Sonra Bəxtiyar 24 yaşında öldü, Azərlə Baycan qaldı. Bəxtiyar Azərbaycanımın Bəxtiyarı öldü.

2-3 ayda bir dəfə, həftəsonları, New Haven'dən qatara minib saat yarım sonra Grand Central'da düşürdük, ordan da bir saata metroyla Brooklyn'dəki evinə çatırdıq. Isti qonaqpərvərlik göstərirdilər bizə, hər cürə rahatlıq yaradırdılar. Sərbəstlik verirdilər - bir otaqda olduqsa heç vaxt o otağa girməzdilər, təzə ər-arvad bol-bol öpüşə bilirdik. Hara istəsək gedib gəzirdik, təki axşam yeməyinə vaxtında gələydik. Amma günümüzü çox zaman elə onlarla keçirirdik. Səhər-günorta-axşam yeməklərində özü qulluq eləyirdi bizə. 60-ci ildə Amerikaya gəldiyi ilk günlərdən restoran açıbmış özünə, sonra orda aşpaz kimi o qədər məşhurlaşıbmış ki, Manhattandakı bir restorana chef götürüblər onu, orda işləyib uzun illər. "Elə sizin düşüb gəldiyiniz Grand Central yoxmu, onunla üzbəüz bir hotel vardı, o hotelin baş chefiydim "

- Azərbaycanda yaxşı yemək bişirmirlər, hamısı cana ziyandır. Bundan yeməmisizmi Azərbaycanda, bilirsənmi nə deyirdilər buna?

- Yox.

- Məməcürə! Burda adı asparaqusdur. O qədər yığıb yeyridik ee uşaq vaxtı. Cincilim varmı genə?

- Var.

- Bəs qırppığan, hajıqıjı?

- Onlar da var.

Neldayla ilk dəfə 70-ci illərdə getmişdiler SSRİ-yə. Azərbaycana getməyə icazə verməyiblər, Moskvadan kənara çıxmaq olmazmış. "Bir yerdə oturub çay içirsən, qənddanda qənd gətirirlər, hamı da əlini atıb o qənddandan qənd götürür" - Nelda deyir bunları. Iyrənibmiş Moskvadan.

Bir dəfə axşamdan xeyli keçmiş döndük evə. Hirslənmişdilər. "Türklərin paradındaydıq" deyəndə Nelda daha da qızmışdı bizə. Küsmüşdük, mısmırığımızı sallayıb "yemək yemirik, toxuq" demişdik yalandan. "Qoy ac qalsınlar!" - Neldanın hirsi soyumurdu. Bizi zorla yemək otağına çəkmişdi, yedirtmişdi: "bibinizə fikir verməyin, bala, bibinizin könlü qırıqdır".

Amerikaya gəlmədən əvvəl 10 il Izmirdə yaşamışdılar. "Orda məni bir dəfə cərrahiyə etdilər", səhərisi gün Nelda deyirdi bunu, " xəbərim olmayıb, uşaqlığımın da ağzını büküblər, deyiblər qoy müsəlmanın bu xristian arvaddan uşağı olmasın" - aglayırdı danışdıqca, "nə olardı bizim uşağımız olsaydı, indi ikimiz bu evdə tək qalmazdıq". Günahkar-günahkar "bizim parada getmək fikrimiz yox idi heç, dedik görək bəlkə Bakıdan kimsə olar orda" deyəndə, "gedin, gedin, niyə getmiyəsiz ki? bizim onlardan bir fərqimiz yoxdu ki, bala, eyni millətik" demişdi, "siz bibinizə fikir verməyin, bibinizin könlü çox sınıqdır". Bu bibin var ha, Azərbaycanın anasıdır. Heç bilirsənmi nə qədər adam gəlib qalıb bizdə Azərbaycandan - hamısının qabağında qulluqçu olub bu. Ta 70-ci illərdən onlara gəlib gedən azərbaycanlıları nəzərdə tutur. ABŞ-a bir azərbaycanlı gəldiyindən xəbər tutdusa tapıb qonaq gətirirmiş evinə. Bura Azərbaycandan professorlar, şairlər gəlib. "Dostluq" cəmiyyəti ilə əlaqələrimiz vardı. Biz onlar vasitəsilə milli təbliğat aparırdıq Bakıda, bilirsənmi? Dediklərindən şübhələnib "axı onlar KQB-nin nəzarətində olublar" deyirəm. "Bəs biz KQB-dəkiləri elə almışdıq da. Bakıda KQB-nin böyüyü vardı, Hüseynov. Onunla yazışırdıq. Onu da milli təbliğatla çəkmişdik öz tərəfimizə". Bir-iki Azərbaycan sovet şairinin adını çəkir - "bizim adamlarıydı". Başımı qaldırıb heyrətlə sifətinə baxıram. Gözlərində parıltı var. O da diqqətlə mənə baxır. Çalışıram anladığımı sifətimdə büruzə verməyim, qorxuram məyus ola. Baxışıraq, gözlərindəki parıltı getdikcə azalır, sifəti tutulur. "Həmin o Hüseynov kömək elədi ikinci dəfə Azərbaycana gedəndə, mənə icazə də aldı ki, Bakıya gedim. Cəbrayıla yenə qoymadılar, amma Bakıda bir həftə qaldım. Heç oteldən uzaqlaşmağa belə icazə yoxuydu".

Oteldə yaxın qohumları ilə görüşə bilmişdi. Nelda getməmişdi onunla, amma qayıdandan sonra soruşubmuş: "ordadamı hamı əlini salıb eyni qənddandan qənd götürür?"

Mən düz 1939-cu ildə, Cəbrayılda rus hökumətinin əleyhinə bir mitinqə qatılmışdım. Camaat yığışıb hökümətdən narazılıq eləyirdi, "belə hökumət bizə lazım deyil" deyirdilər. O mitinqin səhərisi gün əsgər getdim. Əsgərlikdə olduğum vaxt müharibə başladı, ordan da məni müharibəyə götürdülər. Müharibədə bir neçə min azərbaycanlı ruslardan ayrıldıq. Baxdıq ki, ölənlərimizin çoxunu arxadan vururlar. Ruslar fağır azərbaycanlıları qabağa verib almanlara qırdırırdılar, özləri də daldan bizi qırırdı.

Karlo fağır deyildi. Təşkilatçılıq eləyib orduda üsyan qaldıra bilmişdi, minlərlə azərbaycanlı əsgəri öyrədib bir gecədə qaçmışdılar. "10 gün rus ordusu ilə alman ordusunun arasında qaldıq. Başımıza bombalar yağırdı. Axırda almanlarla əlaqə yaradıb onlar tərəfə keçdik".

Rusları mən o vaxt tanıdım. Odu-budu rus dilini ağzıma almıram. Özün görürsən neçə dil bilirəm, rus dilini də bilirdim, qəsdən danışmadım ki, yadımdan çıxsın. Müharibə bitəndən sonra bizim əsgərlərin hərəsini bir yerə göndərdilər, Amerikaya, Kanadaya, hər yerə. Məni hələ Misirə göndərmək istəyirdilər, getmədim, qaldım Avropada. Orda rus konsulosu bizim əsgərlərin bəzilərin şirnikləndirib geri götürmşdü. Dedim onlara ki, getməyin, bunlar dedilər daha müharibə qurtarıb, qayıdaq gedək ev-eşiyimizə. Sonra eşitdik gedənlərin hamısını güllələyiblər. Çox çalışdım, amma ruslardan qisasımı ala bilmədim.

***

Qatarı Mərcanlıda saxlamışdılar, "daha burdan o tərəfə yol yoxdur!" Düşüb piyada üzü günbatana gedirdi. Yolboyu banı dolu maşınlar, beli şələli adamlar, arvad-uşaq, at-eşşək, qoyun-quzu.

- Tinliyə gedirmi bu yol?

- Tinli uzaqdır a kişi, hara gedirsən?

Soraqlaya-soraqlaya gedirdi. Ən sonda hərbçilər kəsmişdi qabağını.

- Yol bağlıdır, kişi, geri qayıt.

- Geri hara? Ağzı bu tərəfə hara qaçırsız?

- Erməni gəlir.

- Erməni gəlir, bəs niyə qaçırsız? Əsgər də davadan qaçarmı?

- Erməni deyil gələn, rusdur.

- Lap yaxşı, mən elə rusları axtarırdım.

Orta yaşlı bir komandirdir. Deyəsən hərbçi qüruruna toxunub qocanın belə köntey danışmağı.

- Sən axı əsgərsən, əsgər qaçmaz. Rusdanmı qorxursan?

- Rusa gücümüz çatmaz.

- Ə, sən heç bilirsənmi Cəbrayılda nə qədər rus qırıblar vaxtında.

- Geri çəkilək, plan quraq.

- Plan odur ki, vuruşasan. Hamınız qaçırsız, bəs nolacaq?

- Yaxçı olacaq, dayı.

- Bala, mən də elə onu deyirəm ki, yaxçı olsun, pendirçi olmasın. Yığ əsgərlərini başına, rusun başın vur əz.

Komandirə "geri qaçma" deyən olmamışdı hələ. Indi bu qəribə, deyəsən hərbidən başı çıxan qoca kim idi, hardan gəlib çıxmışdı bura? Sınayıcı nəzərlərlə əsgərlərinə baxırdı. Deyəsən təpər gəlmişdi qıçlarına.

Atışma səsləri eşidiləndə əsgərlər arasında yenə pərən-pərən düşmüşdü. Qoca əlini atıb geri qaçan çəlimsiz bir əsgərdən silahını dartıb aldı.

- Hara gedirsən, əşşi?

- Vuruşacayıq!

- Başın xarabmı olub? Alın onun silahını əlindən.

- Deyəsən qabağa düşməyə qorxursan, onda dalımca gəl. Vuruşacayıq!

- Alın silahını əlindən!

- Burax ə qolumu! Tinliyə gedirəm, orda vuruşacam ruslarla.

- Nə Tinli? Tinli haradır?

- Mən 55 ildir görməmişəm kəndimi, geri qayıtmaq nədir.

- Nə danışır ə bu? Əşşi, bəs hardaydın bu vaxtacan?

- Amerikada.

Komandirin şübhəsi qalmamışdı deyəsən, bu bədbəxt qoca dəliymiş, kimsə: "Qollarını burun, basın maşına. Yazığın başı xarab olub, gedib azıb elə keçər. Maşına basın, aparın!"

Bu, onun üçüncü və son gəlişiydi. Bu dəfə nə Moskvaya getməyə ehtiyac vardı, nə ordan icazə almağa; nə qarşılayan vardı onu, nə güdən. Dava başlayandan onsuz da yuxusu ərşə çəkilmişdi. Cəbrayıldan xəbərlər yoğunladıqca New York'da qərar tuta bilməyib özünü yetirmişdi. Gələn günün axşamı da döyüş bölgəsinə getməyə razı olacaq taksi tapmayınca dəmiryol vağzalına qaçıb bilet almışdı.

Həmin o avqust axşamı çox adam toplaşmışdı vağzala. Cəbrayıl işğal təhlükəsi altındaydı; son dəqiqələrdə gedib evini görmək istəyən kim, hökümətdən kömək istəməyə çağıran kim, "silah da var, sursat da, vuruşan yoxdur" deyən kim, hündür səslə camaatı vuruşmağa çağıran kim. Hərənin ağzından bir avaz gəlirdi. Adamların arasında bir az kənara çəkilib danışanları dinləyən gənc bir Azər də vardı. Elə onun yanından etinasızca keçib qatara minmiş, birbaş Cəbrayıla üz tutmuşdu.

*(Qaytaran Eyvazlı 2007-ci il noyabrın 26-da, Nelda isə 2010-cu ildə Padovada (İtaliyada) vəfat etmişlər.)*

---

*Vado io - mən gedirəm*
*Basta - bəsdir*
*Finito - bitdi*
*La strada e aperta - küçə açıqdır, yol açıqdır*
*Ma capelli erano bellissimi - Amma saçları çox gözəl idi*

## Cəbrayıl rayon prokurorunun 2017-ci ilin 3-cü rübündə yaşayış yerləri üzrə vətəndaşların qəbul vaxtları

| S/S | Yaşayış yerinin adı və qəbul yeri | Qəbul vaxtı | Qəbulu keçirən şəxs |
|---|---|---|---|
| 1. | Bakı şəhəri, Suraxanı rayonu, 3-cü mədən yaşayış massivi, Cəbrayıl rayonu Hovuslu kənd tam orta məktəbinin inzibati binası | 15.07.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 2. | Bakı şəhəri, Nizami rayonu, Naxçıvanski küçəsi-100, Cəbrayıl rayonu, Əmirvarlı kənd tam orta məktəbinin fəaliyyət göstərdiyi inzibati bina | 25.08.2017-ci il Saat: 15:00 | Prokuror Maarif Hüseynov |
| 3. | Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül qəsəbəsi, 2090-cı məhəllə, Cəbrayıl rayonu, 3 saylı orta məktəbin fəaliyyət göstərdiyi inzibati bina | 09.09.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 4. | Şirvan şəhəri (Sənaye Texnikumunun inzibati binası) | 23.09.2017-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |

## Cəbrayıl rayonu üzrə yazlıq kənd təsərrüfatı bitkilərinin əkini başa çatıb

Cəbrayıl rayon əhalisi məcburi köçkün olaraq respublikanın müxtəlif rayon və şəhərlərində məskunlaşmış və həmin ərazilərdə bu və ya digər formada torpaqdan istifadə etməklə müxtəlif növ kənd təsərrüfatı bitkilərinin əkinini aparmışlar.

Bu əkinlər əsasən Biləsuvar rayonu ərazisində cəbrayıllı məcburi köçkünlər üçün salınmış 11 qəsəbədə yaşayan məcburi köçkün ailələr tərəfindən əkilmişdir. Belə ki, 1-6 saylı qəsəbələrdə hər bir ailə üçün əkin yeri 0,71 hektar (0,12 ha həyətyanı sahə və 0,59 ha əkin sahəsi), 7-11 saylı qəsəbələrdə isə hər bir ailə üçün 0,52 hektar (0,12 ha həyətyanı sahə və 0,40 ha əkin sahəsi) torpaq sahəsinin ayrılması hesabına olmuşdur.

Cocuq Mərcanlı kəndi işğaldan azad edildiyi üçün həmin kənddə yaşayan bir ailə kəndli təsərrüfatı həmin ərazidə 25 hektar buğda və 18 hektar arpa əkmişdir.

Rayonda mövcud olan 23 inzibati ərazi dairələrinin hamısında ayrı-ayrı ailə təsərrüfatları payızlıq və yazlıq əkin aparmışdılar.

2017-ci ilin məhsulu üçün əkin sahələri 4103 hektar təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 419 hektar və ya 11,4 % çox olmuşdur.

Əsas ərzaq məhsulu olan payızlıq və yazlıq dənli və dənli paxlalıların əkin sahəsi 2979,7 hektar olmuşdur. 2017-ci ildə tərəvəzlərin əkin sahəsi cəmi 61 hektar olmuşdur ki, bu da əvvəlki ilə nisbətən 1 hektar və ya 1,7 faiz çox deməkdir. Əkilmiş tərəvəz sahələrindən 31 hektar pomidor, 17 hektar baş soğan, 4 hektar xiyar, 1 hektar kələm, 1 hektar sarımsaq, 0,4 hektar xörək çuğunduru, 0,6 hektar xörək üçün yerkökü və 6 hektar sair tərəvəzlərin payına düşür. Ərzaq üçün bostan bitkilərinin cəmi 4 hektar olmuşdur ki, bununda 3 hektarını qarpız və 1 hektarını isə yemiş təşkil edir. Kartofun əkin sahəsi keçən ilə nisbətən 1 hektar artırılaraq 29 hektar təşkil etmişdir. Cari ildə şəkər çuğunduru 2,5 hektar olmuşdur ki, bu göstərici 2016-cı ilə nisbətən 9,5 hektar az olmuşdur. Strateji məhsul olan pambığın daha yüksək qiymətə alınacağına dövlət zəmanəti verilməsi ilə əlaqədar kənd təsərrüfatının aparıcı sahələrindən biri olan pambıqçılığa maraq daha da artmış və bu il 71,8 hektar pambıq sahəsi əkilmişdir. Pambıq əkini keçən ilə nisnətən 37,8 hektar və ya 2 dəfə çox olmuşdur.

Yem bitkilərinin əkin sahəsi 955 hektar olmuşdur ki, bunun da 55 hektarı cari ilin, 900 hektarı isə əvvəlki illərdə əkilmiş çoxillik ot olan yonca bitkisinin payına düşür.

## Cəbrayıl rayonu üzrə "Təhsil və sosial təminat vəziyyəti haqqında" göstəricilər

**Ümumi təhsil.** 2016/2017 dərs ilinin əvvəlinə rayonda fəaliyyət göstərən 41 dövlət gündüz ümumtəhsil məktəblərində 9342 nəfər şagird təhsil almış və ötən dərs ili ilə müqayisədə onların sayı 711 nəfər və ya 8,2 faiz artmışdır.

Rayonda tam orta məktəb binalarının 7,3 faizi yararsız vəziyyətində və tam orta məktəb binalarının 36,6 faizinin əsaslı təmirə ehtiyacı vardır. Rayonda tam orta məktəb binalarının 26,8 faizində qızdırıcı sistemi və 53,7 faizində isə kanalizasiya sistemi yoxdur.

2016-cı ildə ümumtəhsil məktəblərini 691 nəfər bitirmiş və ümumi orta təhsil haqqında attestat almışdır.

2016-ci ilin əvvəlinə 1 peşə məktəbi fəaliyyət göstərmiş və bu ilk peşə təhsili müəssisələrində 59 nəfər şagird təhsil almışdır.

**Pensiya təminatı.** 2017-ci ilin əvvəlinə Sosial Müdafiə Fondunun rayon şöbəsində 8474 nəfər pensiyaçı qeydiyyatda olmuşdur. Pensiyaçıların 3081 nəfəri yaşa görə, 5077 nəfəri əlilliyə görə, 316 nəfəri isə ailə başçısının itirilməsinə görə pensiya alan şəxslərdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 171,02 manat təşkil etmişdir.

Ötən il 3183 nəfərə sosial müavinət təyin olunmuş və 1 nəfərə düşən orta aylıq məbləğ 62,87 manat olmuşdur.

2017-ci il yanvar ayının 1-i vəziyyətinə görə rayonda 802 nəfərə ünvanlı dövlət sosial yardımı verilmiş və 1 nəfərə düşən orta aylıq məbləğ 32,09 manat təşkil etmişdir.

**Sahib Süleymanov,**
**Cəbrayıl rayon Statistika İdarəsinin rəisi**

# Ağır olur dost itkisi

Amansız ölüm Cəbrayılın gözəl insanlarından biri-Eldar Əliş oğlu Quliyevi aramızdan apardı. Barmaqla sayılacaq qədər etibarlı və sədaqətli dostlarımızdan olan Eldar müəllimin ölüm xəbəri məni də çox sarsıtdı.

***Həsrətə, hicrana dözmək çətindi,***
***Ürək ağlayarkən gülmək çətindi.***
***Yaman ağır olur dostu itirmək,***
***Dostun matəminə gəlmək çətindi.***

Eldar müəllim çətin və mənalı həyat yolu keçmişdir. O, Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirdikdən sonra 1971-1977-ci illərdə Araz Su-Tikinti İdarəsində tərcüməçi kimi əmək fəaliyyətinə başlayıb.

1977-1982-ci illərdə Quycaq kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləyib. Eldar Quliyev 1982-1985-ci illərdə Əfqanıstanda sovet ordusu sıralarında zabit rütbəsində qulluq etmişdir.

Qarabağ müharibəsi zamanı 896 saylı polkun qərargah rəisi işləmiş, mayor rütbəsində təqaüdə çıxmışdır.

Eldar müəllim zəngin biliyə malik ziyalılarımızdan idi. Sədaqətli, etibarlı dost, mənəvi cəhətdən kamil bir insan olması ilə hamının hörmətini və etimadını qazanmışdı. O, təbiətən nikbin, yumoru sevən, deyib-gülən adam idi. Eyni zamanda nüfuzu və sanbalı ilə iştirak etdiyi məclislərə urvat gətirərdi. Adam var ki, güləndə səni ağlamaq tutur, nəinki sifətini, hətta adını belə eşidəndə bütün borcların yadına düşür, tərki-dünya olursan. Bütün bunlara rəğmən Eldar müəllim sanki müsbət enerji və xoş auranın mənbəyi idi. Ancaq....

***O, doğma Quycağın yaraşığıydı,***
***Təpədən-dırnağa ağıldı, getdi,***
***Xalqın taleyindən gedir bu gedən,***
***Elimə, obama oğuldu, getdi.***

***Zirvəyə çatmağa tale göz yumur,***
***Nuru azaldıqca torpaq nur umur.***
***O nurlu təbəssüm, o nurlu yumor,***
***O nurlu gülüşlər yox oldu getdi.***

Bəzən öz-özümə fikirləşirəm ki, maşına, yaxud paravoza bağla-



dığı kəndiri dartaraq onu yerindən tərpədən pəhləvanın gücünə hamı təəccüblənir, alqışlayır. Görəsən, rəhmətlik Mirələm dayı, Mübariz Süleymanov, eləcə də Eldar müəllim kimi insanların nəinki kəndlərini, hətta bütöv bir el-obanı mənəvi cəhətdən öz arxalarınca aparmaq qabiliyyəti, mənəvi gücü, qüvvəsi hansı meyarlarla ölçülə bilər?

Hər adam el məhəbbətini qazana bilmir ki.

Yaxşı deyiblər "Gözdən pərdə asmaq asan olsa da, Qəlblərə yol açmaq asan olmayıb".

Taleyin amansız sınağı da Eldar müəllimdən yan ötmədi. Oğlu Zəfər arzularının çiçəkləndiyi bir vaxtda dünyasını dəyişdi.

Bu müsibət heç kimin qarşısında əyilməyən, vüqarlı Eldar müəllimin qəddini əydi, gözlərinin nurunu tamamilə azaltdı.

***Vaxtsız saçlarıma ələnsə də dən,***
***Ürəkdən söyləyib istərəm ki, mən.***
***Ata arxasında dağa bənzəyən,***
***Ata sinəsində dağa dönməsin!.***

Son vaxtlar qardaşı Əli müəllimin və bacısı Zərifə xalanın da əbədiyyətə qovuşması onu daha da təsirləndirirdi. Bu dərdlər - oğul, qardaş, bacı itkisi Eldar Əliş oğlunu günü-gündən şam kimi əridirdi. Bir yandan da vətən həsrəti-Quycaqlı günlərin nostalji hissləri, kövrək duyğuları onun qəlbini göynədirdi:

***Gəzirəm qürbətdə əl havasına,***
***Yediyim-içdiyim canıma sinmir.***
***Padşah libası da geyirəm hərdən,***
***Bədənim isinir, canım isinmir.***

Eldar Əliş oğlu may ayının 22-də böyüyüb boya-başa çatdığı, hər cığırına bələd olduğu, bəxtəvər günlərini yaşadığı, qarış-qarış gəzərək gözəlliklərindən doymadığı yurd yerlərinə aparan yollara intizarla boylanaraq, son dəfə dərindən yanıqlı ah çəkərək gözlərini əbədi yumdu, haqq dünyasına qovuşdu. Onun xoş əməlləri, xatirələri övladlarının,nəvələrinin, qohumlarının, dostlarının qəlbində həmişə yaşayacaqdır.

Mənəviyyatın kosmik sürətdə uçuruma yuvarlandığı bir məqamda, cəmiyyətin bu cür insanlara həmişə mənəvi ehtiyacı olub və həmişə də olacaqdır.

Allah rəhmət eləsin! Qəbri nurla dolsun!

***Çətin olur, ağır olur***
***dost itkisi,***
***Ürəklərdə bir dağ olur***
***dost itkisi.***

***Qara saçda dümağ dəndi,***
***Baxışlarda duman, çəndi,***
***Çətindən də çox çətindi,***
***dost itkisi***

***Qayalarda qopan daşdı,***
***Qəm-kədərə bir yoldaşdı,***
***Üzdə nisgil, gözdə yaşdı,***
***dost itkisi***

***Çətin gündü, çətin həyat,***
***Qaçmaq olmur ondan, heyhat,***
***Sınan qoldu, sınan qanad,***
***dost itkisi...***

**Vidadi Hümbətov**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti**

Dövlətqaçqınkomun məsul işçisi Şəhriyar Əliyevə, atası
**Yusif Bəşir oğlu Əliyevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
**Allah rəhmət eləsin!**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti**

Quliyev Eldar Əliş oğlu
Məmmədov Hümbət Xankişi oğlu
Hüseynov Əvəz Fərrux oğlu
Balakişiyev Ərşad Oruc oğlu
Ağayev Əhməd Dadaş oğlu
Hacıyeva Saçı Xankişi qızı
Əhmədova Kənəf Məmmədxan qızı
Əhmədov Oruc Turab oğlu
Həziyev Emil Oruc oğlu
İsmayılova Telli Cümşüd qızı
Həmidova Məlahət Teymur qızı
Yunisova Fatma Əhməd qızı
Əliyev Famil İdris oğlu
Rəhimov Xasay Surxay oğlu
Fərhadov Ehtiqat Qürbət oğlu
Mahmudov Əziz Bəşir oğlunun
**vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**H/h:55233080000**
**kod: 200888**
**VÖEN: 9900003611**
**M/h: 013010001031**
**Kapitalbankın Cəbrayıl filialı**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1037, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Açıq Səma" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 1857**
**Tiraj: 1000**